

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Dünyada alternativi olmayan multikultural dövlət


12

№ 132 (6815)

SƏS

28 iyul 2023-cü il.
Qiyməti 60 qəpik

# "Dəmir yumruq"dan Qarabağın dirçəlişinə doğru



2

PREZİDENT İLHAM ƏLİYEV:
"Biz hədəfə doğru gedirdik,
gedirik və bir çox hədəflərə çatmışıq"

# "TIR şousu" və qurbanlıq ermənilər



8

## Niyə sağlam müxalifət formalaşa bilmir?


14

## Fuad Qəhrəmanlı cildini dəyişir


10

## Musiqi tariximizə iz salanlar


7



## Ər öz arvadına sözünü "votsap"la deyir

15

## Tiktok, yoxsa mənəviyyat qəbiristanlığı


11

# “Dəmir yumruq”dan Qarabağın dirçəlişinə doğru

## PREZİDENT İLHAM ƏLİYEV: "Biz hədəfə doğru gedirdik, gedirik və bir çox hədəflərə çatmışıq"

Bəli, bu gün ”Dəmir yumruğ”un gücü ilə ”Qarabağ Azərbaycandır!” dirçəliş yolundadır. 44 günlük müharibəni şanlı qələbə ilə başa çatdırdıqdan sonra Azərbaycan dövlətinin qarşısına qoyduğu milli prioritetlərdən biri də işğaldan azad etdiyi torpaqlara tezliklə Böyük qayıdışı gerçəkləşdirmək idi. Buna görə də Vətən müharibəsindən dərhal sonra tarixi ərazilərimizdə geniş quruculuq və bərpa işlərinə start verildi. Qarabağa və Şərqi Zəngəzura yenidən həyatın qaytarılması üçün birbaşa dövlət başçısı İlham Əliyevin şəxsi nəzarəti və diqqəti altında bu ərazilərdə dünyada misli görünməmiş meqalayihələrin icrasına başlanıldı.






Prezident İlham Əliyevin tapşırığına əsasən iyulun 21-də ”Heydər Əliyev ili” çərçivəsində Azərbaycan mili mətbuatının 148-ci ildönümü ilə bağlı Zəfərimizin tarixi olan Şuşada 3 gün davam edən I Şuşa Qlobal Media Forum çərçivəsində dövlət başçımız tərəfindən Azərbaycan xalqına və bütün dünya ölkəmizin ictimaiyyətinə bir sıra vacib mesajlar ötürüldü.

Dövlətimizin başçısı çıxışı zamanı işğaldan işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsinin əsas məsələlər sırasında olduğunu və Böyük Qayıdışa ən böyük əngəl yaratdığını bildirdi. Doğrudur, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu, Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. Bu, həm on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir.

### MİNA XƏRİTƏLƏRİNİN VERİLMƏSİ PREZİDENT İLHAM ƏLİYEVİN QƏTİYYƏTLİ İRADƏSİNİN MƏNTİQİ NƏTİCƏSİ VƏ DAHA BİR PARLAQ DİPLOMATİK QƏLƏBƏSİDİR

Ermənilər tərəfindən basdırılmış çoxsaylı minalar yüz minlərlə məcburi köçkünün işğaldan azad olunmuş rayonlara qaytarılmasına ciddi maneə yaradır. Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın mina xəritələrini verməyə məcbur etmək üçün apardığı məqsədyönlü və prinsipial siyasət öz məntiqi nəticəsini verməkdədir. Bu, 30 il işğal altında saxlanılan Qarabağın azad olunması ilə nəticələnmiş Zəfərdən sonra dövlətimizin başçısının növbəti qələbəsi kimi səciyyələndirilməlidir.

Bu siyasətin nəticəsi olaraq böyük beynəlxalq aktorlar Ermənistanın minalanmış ərazilərin xəritəsini verməsi barədə Azərbaycan tərəfinin haqlı tələblərini, dövlət sərhədinin delimitasiyası ilə bağlı təkliflərini dəstəkləyir. Bu gün bir sıra ölkələrin Azərbaycanda yeni təyin olunmuş qeyri-rezident səfirlərinin etimadnamələrini qəbul edərkən bu barədə danışan Prezident İlham Əliyev deyib: ”Əgər Ermənistan sülh istəyirsə, bizim də sülh sazişinə ehtiyacımız var. Əgər Ermənistan müharibə istəyirsə, ötən ilin payızındakı eyni nəticəni əldə edəcək. Əgər Ermənistan sülh istəyirsə, onlar delimitasiya ilə bağlı bizimlə danışıqlara başlamalıdır. Əgər onlar bunu etməsələr, peşman olacaqlar”.

Və bu gün mina xəritələrinin verilməsi Prezident İlham Əliyevin qətiyyətli iradəsinin, bu istiqamətdə atdığı məqsədyönlü addımların məntiqi nəticəsi, növbəti parlaq diplomatik qələbəsidir. Bu, on minlərlə vətəndaşımızın həyatını və sağlamlığını təhlükələrdən xilas edəcək, işğaldan azad olunmuş ərazilərin bərpası və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirməyə imkan verəcək.

### ”MİNATƏMİZLƏMƏ PROSESİ BÖYÜK QAYIDIŞA ƏN BÖYÜK ƏNGƏLDİR”

Azərbaycan Prezidenti İlham Əliyev ”4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib ki, minatəmizləmə prosesi (Böyük Qayıdışa - red.) ən böyük əngəldir: ”Çünki bu iki il yarım ərzində gördüyümüz işlər təkcə onu göstərmir ki, bizim maliyyə imkanlarımız var. Onu göstərir ki, bizim çox ciddi təcrübəmiz və peşəkar kadrlarımız var”,-deyərək onu da vurğuladı ki, bu miqyasda layihələri iki il yarım ərzində həyata keçirmək, məncə, heç kimin ağlına gəlməzdi: ”Heç kim təsəvvür edə bilməzdi ki, cəmi iki il yarım ərzində bu qədər genişmiqyaslı işlər görüləcək, özü də böyük ərazidə. On min kvadratkilometri əhatə edən ərazidə durmadan, gecə-gündüz işlər gedir”.

Bəli, əsas məsələ

### ”QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN BƏRPASI PROSESİNİN BİRİNCİ MƏRHƏLƏSİNDƏ ƏSAS VƏZİFƏMİZ 8 ŞƏHƏRİ VƏ 100 KƏNDİ YENİDƏN QURMAQDIR”

Azərbaycan Prezidenti İlham Əliyev ”4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb, ”Böyük Qayıdış” proqramı qəbul edilib, proqramın icrası üçün maliyyə resursları səfərbər edilib. İnfrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər təxminən 7 milyard ABŞ dollarına bərabər olacaq. Bu, ancaq başlanğıcdır.

”Birinci mərhələdə bizim əsas vəzifəmiz 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Artıq bir neçə yaşayış məntəqəsində insanlar məskunlaşıb”, - deyə dövlət başçısı bildirib.

Bəli bu gün .

### TARİXİ ZƏFƏRİMİZDƏN CƏMİ İKİ İL YARIM ƏRZİNDƏ QARABAĞIN DİRÇƏLİŞİ YOLUNDA BİR ÇOX DÖVLƏTLƏRİN 10 İL ƏRZİNDƏ GÖRƏ BİLMƏDİYİ İŞLƏRİ REALLAŞDIRIB

Bəli, tarixi Zəfərimizdən iki il yarım keçməsinə baxmayaraq görülən işlər göz qabağındadır. Azərbaycan Prezidenti ”Dəmir Yumruğ”un gücü ilə 44 günlük zəfər qələbəmizdən keçən cəmi iki il yarım ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur. Şuşaya Zəfər yolu, Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir, dini-tarixi abidələr bərpa olunur. İnfrastruktur layihələri icra olunur. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır.

Cəmi iki il yarım öncə Vətən müharibəsi başlayanda İlham Əliyev xarici KİV-ə verdiyi müsahibələrdə qətiyyətlə, inamla deyirdi ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Yeni-yeni infrastrukturlar yaradılacaq. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda siyasi münasibətlər sahəsində də müsbət meyillər güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq. Bir sözlə, Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Hər kəs şahiddir ki, erməni vandallarının daşı daş üstündə qoymadığı torpaqlarımızda ikil il yarımda hansı işlər görülüb və bu quruculuq işləri hər gün davam etdirilir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, yaxın illərdə Qarabağ yenidən cənnətməkana çevriləcək. Prezident İlham Əliyevin dediyi kimi, ölkəmizin gələcək inkişafı çox uğurlu olacaq. Və bu günədək Azərbaycan Prezidentinin bəyan etdiyi bütün hədəflərə nail olunması bunu təsdiqləyir.

Bəli, bu gün fəxrlə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə ”Böyük Qayıdış” üçün bütün zəruri tədbirlər həyata keçirilir, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir.

### AZƏRBAYCAN BÖYÜK QAYIDIŞI ÖZ DAXİLİ MALİYYƏ MƏNBƏLƏRİ HESABINA REALLAŞDIRIR

Bəli, Azərbaycan Böyük Qayıdışı öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. 2023-cü il üçün dövlət büdcə layihəsinə əsasən, Böyük Qayıdış layihəsi çərçivəsində işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclər 3 milyard manat nəzərdə tutulub. Qeyd edək ki, büdcədən 2021-ci ildə bərpa prosesinə 2.2 milyard, 2022-ci ildə 2 milyard 670 milyon manat nəzərdə tutulmuşdu. Bu isə o deməkdir ki, 3 il ərzində (2021-2023-cü illər) Qarabağ və Şərqi Zəngəzurunun bərpa bə yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu, məhz Qarabağın daha qısa müddətdə bərpasına olan xüsusi diqqətdir.

Göründüyü kimi, günümüzün reallığı deməyə əsas verir ki, regionda yaranan yeni şərait ölkəmiz və bölgə üçün yaxşı perspektivlər vəd edir və Prezident İlham Əliyevin vurğuladığı kimi, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. Və arzuları gerçəyə çevirəcək Böyük Qayıdışa dair I Dövlət Proqramında əks olunan hədəf, məqsəd və vəzifələrin icrası bölgədə məskunlaşacaq əhalinin layiqli həyat şəraitini təmin edəcək və bu nəzərdə tutulan tədbirlər strateji hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcəkdir. Həm də dünya bir daha şahidi olacaq ki, Prezident İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir və Azərbaycan düzgün yoldadır, uğurlu gələcəyə inamla addımlayır.

Bir sözlə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və bu gün Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək və insanlarımız yurd həsrətinə son qoyaraq öz doğma torpaqlarında firavan yaşayacaqlar.

**RƏFİQƏ KAMALQIZI**

# "Humanitar yük" şousu:
# OYUN BİTDİ!




**Torpaqlarının işğalı faktı ilə heç zaman barışmayan Azərbaycan öz ərazilərinin işğaldan azad edilməsi, ərazi bütövlüyünün təmin edilməsi uğrunda mübarizədən bir an belə çəkinməyib və özünə məxsus olana sahib çıxıb. Ermənistanın, dünya ermənilərinin, onların aldatdığı dünyanın müxtəlif ölkələrindən olan qərəzli siyasətçilərin, ictimai xadimlərin, jurnalistlərin, ümumilikdə, bütün ermənipərəstlərin Azərbaycan əleyhinə fəaliyyəti, hətta təxribatları belə ölkəmizi öz ədalətli mübarizəsindən, haqq yolundan çəkindirə bilməyib və bundan sonra da çəkindirə bilməz.**

Biz öz torpaqlarımızı, öz milli maraqlarımızı, bizə məxsus olanı qorumalıyıq və buna görə əcdadlarımızın da, müasirlərimizin də, gələcək nəsillərimizin də qarşında məsuliyyət, vətən torpağının hər qarışı uğrunda canından keçmiş şəhidlərimizin ruhu qarşısında buna görə borcluyuq. Azərbaycanın bu gününə, gələcəyinə təhlükə sayıla biləcək nə olsa qarşısını almalıyıq. Heç bir qüvvə, heç bir təzyiq və təsir, heç bir siyasət bizi bu yoldan çəkindirə bilməz. Bunun üçün bizim hüquqi əsasımız da, gücümüz, qüdrətimiz, potensialımız da var. Zərrə qədər də olsa buna şübhə edənlər Azərbaycan Prezidenti cənab İlham Əliyevin düşünülmüş siyasəti, ordumuzun qəhrəmanlığı və şücaəti, xalqımızın birliyi, həmrəyliti sayəsində 44 günlük müharibədə Azərbaycanın böyük qələbə qazandığını, Şuşanın, Laçının, Kəlbəcərin, Füzulinin və başqa torpaqlarımızın geri qaytarıldığını xatırlaya bilərlər. O zaman Azərbaycan reallıqlarını, yeni reallıqları dərk edə bilərlər. Dərk edə bilərlər ki, Ermənistanın, dünya ermənilərinin və onların dünyanın müxtəlif ölkələrindən, o cümlədən dünyanın aparıcı dövlətlərindən olan havadarlarının planlarına baxmayaraq öz gücü hesabına qalib gələn Azərbaycandan Qələbənin bəhrələrini almaq mümkün deyil, çünki 44 günlük müharibədə həmrəy olan xalqımız, Azərbaycan cəmiyyəti bu məqamda da həmrəydir.

Cəsarətlə və əminliklə deyə bilərik ki, artıq ermənilərin regionda tamamilə yeni geosiyasi vəziyyətə təsir göstərmək cəhdləri əbəsdir və ümimiyyətlə mənasızdır. Azərbaycanın mükəmməl qələbəsini danmaq, qalib ölkə statusuna kölgə salmaq istəklərinin, arzularının puç olduğunu haylar özləri hamıdan yaxşı bilirlər. Yaxşı bilirlər ki, Azərbaycan öz haqlı mövqeyindən geri çəkilən, qanuni tələblərindən imtina edən, düşmənə güzəştə belə gedən deyil. Lakin bunu başa düşsələr də təxribat yolu ilə, müxtəlif hiylələrlə tarixin gedişatına, bəzi məqamlara təsir etmək, nə isə qazanmaq niyyəti güdürlər, halbuki bu cəhdləri də onlar üçün faydasızdır. Nəinki faydasızdır, hətta onların özləri üçün təhlükəlidir. Təxribat xarakterli, çirkin niyyətli addımlarının özlərinə baha başa gələcəyini dərk etməsələr, daha acınacaqlı, daha faciəvi sonluqla qarşılaşacaqlarını bilməlidirlər. Əslində, erməni baş nazir Nikol Paşinyan özü də sonuncu dəfə çıxışında bu barədə etiraflar edib və bildirib ki, 44 günlük müharibə dönəmində Ermənistanın mövcudluğu belə təhlükə altında olub. Deməli, işğalçı ölkənin hakimiyyəti belə oynadıqları oyunların özləri üçün təhlükəli olduğunun fərqindədir. Artıq fərqindədir ki, bu oyunları sonsuza qədər davam edə bilməz və buna Azərbaycan tərəfi daha imkan verməyəcək.

Bəli, ermənilər tarix boyu öz mənfur niyyətlərinin gerçəkləşməsi naminə, daha dəqiq desək, başqalarına mənsub olanı ələ keçirmək, qamarlamaq, oğurlamaq məqsədi ilə çirkin oyunlara, müxtəlif hiylələrə əl atıblar. Başqalarına məxsus torpaqları, adət-ənənəni, mədəniyyəti, ümumiyyətlə, bacarsaydılar hər şeyi mənimsəmək niyyəti ilə oynadıqları oyunu da məqbul, qəbulolunan hesab ediblər. Oğurlamaq, qanunsuz şəkildə ələ keçirmək və bunun üçün hər bir əmələ, hər oyuna, hər hiyləyə baş vurmaq erməni xisləti üçün adi hal sayılıb. Bu xislət tarix boyu onları vadar edib ki, hər zaman hiylə və oyun quraraq, nə isə ələ keçirsinlər. Əslində, bundan əl çəkməyiblər və indi də, gələcəkdə də bu oyunlara baş vurmaları və vuracaqları təkzib edilə bilməz. Amma bu oyunlarının, hiylələrinin bundan sonra baş tutacağına, bununla da nəyə isə nail olacaqlarına özlərinin belə ümidləri yox dərəcəsindədir, çünki oyunun sonuna gəldiklərini də görürlər.

Hazırda rəsmi Bakının razılığı olmadan Azərbaycanın suveren ərazilərinə soxulmaq məqsədilə "humanitar yük" adı altında Ermənistan tərəfinin ərazilərimizə avtomobil karvanı göndərməsi də növbəti erməni hiyləsi, erməni oyunudur. Bir maraqlı məqamı da diqqətə çatdıraq ki, dırnaqarası "humanitar yük", 44 günlük müharibədən sonra ölən erməni əsgərlərinin sayını, Ermənistan tərəfinin itkilərini gizlətmək niyyəti ilə bir neçə ay müddətində cəsədləri gizlətdikləri "Spayka" şirkətinin soyuducularında göndərilib. Görünən odur ki, bu, sadəcə olaraq, "humanitar yük" sousudur. Bu şou ilə ölkəmizin ərazilərinə soxulmaq cəhdi isə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qəsddir. Ən çox diqqəti cəlb edən isə həmin o "Humanitar yük" sousunda Markus Ritterin özünün də rəhbərlik etdiyi Avropa İttifaqının Ermənistandakı missiyasının və diplomatik korpusun da iştirak etməsidir. Dərhal bəlli olur ki, bu şou əvvəlcədən planlaşdırılıb və bu da onu deməyə əsas verir ki, bədnam ikili standartlar siyasətinə sadiqliyik artıq nümayişkəranə şəkildədir, lakin Avropa İttifaqının Ermənistandakı missiyası "humanism" adı altında iştirak etdiyini iddia edir.

Maraqlıdır, Ermənistanın silahlı dəstələri ötən əsrin sonlarında Azərbaycana soxulanda, torpaqlarını işğal edəndə, həmin torpaqları otuz ilə yaxın işğal altında saxlayanda, soyqırımlar törədəndə, bir milyona yaxın qaçqın və məcburi köçkün yurd-yuvasından çarəsiz şəkildə didərgin düşəndə Avropa İttifaqı belə bir humanizm haqqında niyə heç düşünmədi də? Ermənistan BMT qətnamələrinə həyasızcasına məhəl qoymayanda da avropalıların azca da olsa narahatlığını belə niyə görmədik? Bu zamana qədər beynəlxalq hüququn norma və prinsplərinə məhəl qoymayan Ermənistana qarşı real siyasi və iqtisadi təzyiq olmadığı halda, heç bir sanksiya tətbiq edilmədiyi təqdirdə, həmin o Avropa İttifaqının işğalçı ölkədəki missiyası hansı üzlə həmin "Humanitar yük" sousunda iştirak edir?

Xatırladaq ki, Ağdam-Xankəndi yolunun Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərə yüklərin daşınması üçün istifadə oluna biləcəyi barədə Azərbaycan bəyan edib. Diqqətə çatdıraq ki, ölkəmizin bu təklifi Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel tərəfindən bəyənilib də. Maraqlıdır, bunun ardınca Avropa İttifaqı nümayəndələrinin ermənilərin "Humanitar yük" sousunda iştirakını necə başa düşək? Belə çıxır ki, həmin Avropa İttifaqı nümayəndələri məhz Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin mövqeyini hesaba almırlar?

Məsələyə tamamilə başqa rakursdan yanaşdıqda, daha dəqiq desək, təklif olunan yolun texniki xüsusiyyətlərini nəzərə aldıqda görürük ki, Bərdə-Ağdam yolunun bərpasından sonra yüklərin daha tez və operativ şəkildə çatdırılmasına imkan verən əsaslı, məntiqli səbəblər çoxdur və bu baxımdan da həmin yoldan istifadə etmək üçün heç bir əsas ola bilməz. Elə isə niyə imtina edilir? Yaxud, imtina etməkdə məqsəd nədir? Əgər məkrli niyyət yoxdursa, ya da gizlin plan qurulmayıbsa niyə təklif edilən yoldan imtina olunur, əvəzində də belə şou düzəldilir? Beynəlxalq təşkilatlar, haqqı, ədaləti müdafiə etdiklərini iddia edənlər görmürlərmi ki, buna, bu şouya dəstək verməklə, ya da göz yummaqla erməni xalqını sülhə deyil, yeni müharibəyə təhrik edirlər, sövq edirlər. Erməni separatizmini və təcavüzünü təşviq etmək ərazi bütövlüyümüzə hörmətsizlik nümayiş etdirmək deməkdir. Ermənistan Dağlıq Qarabağ xalqının taleyini həll edə bilməz", deyə bir tərəfdən erməni baş naziri pafoslu çıxış edir, digər tərəfdən də Ermənistan faktiki olaraq Qarabağ ermənilərinə təsirini davam etdirir, çünki cinayətkar rejimi himayə edir və silahlı qüvvələrini Azərbaycan bölgəsindən çıxarmaq niyyətində deyil. Amma bu, o demək deyil ki, İrəvanın bu niyyətinə kimsə mane olmayacaq və ermənilər istədiklərini edəcəklər. Xeyr, əvvəldən də qeyd olunduğu kimi, biz öz torpaqlarımızı, öz milli maraqlarımızı, bizə məxsus olanı qorumalıyıq və qoruyacağıq da. Azərbaycanın bu gününə, gələcəyinə təhlükə sayıla biləcək nə olsa qarşısını almalıyıq, alacağıq da və heç bir qüvvə, heç bir təzyiq və təsir, heç bir siyasət bizi bu yoldan çəkindirə bilməz. Bunun üçün bizim hüquqi əsasımız da, gücümüz, qüdrətimiz, potensialımız da yetərincədir və Qələbənin bəhrələrini Azərbaycandan almaq mümkün deyil. Tarix boyu öz mənfur niyyətlərinin gerçəkləşməsi naminə, başqalarına mənsub olanı ələ keçirmək, oğurlamaq üçün çirkin oyunlara əl atan ermənilərin oyunları sonsuza qədər davam edə bilməz, əmin olsunlar ki, buna artıq imkan verilməz. Oyunlarının, hiylələrinin baş tutacağına, bununla da nəyə isə nail olacaqlarına zərrə qədər də ümid etməsinlər, çünki oyunun sonuna gəldikləri göz önündədir. Təsadüfi deyildi ki, Avropa İttifaqı, Türkiyə, ABŞ və İsveçrə səfirləri ilə görüşdə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev, "oyun bitdi" deyib və bu mesajı həmin o humanitar şou göstərənlər zamanında dərk etməsələr dəmir yumruğu bir daha başlarının üzərində görməli olacaqlar.

***İnam Hacıyev***



## XİN: "Ermənistanın ölkəmizlə razılaşdırmadan Azərbaycanın suveren ərazilərinə "humanitar yük" göndərməsi növbəti təxribatdır"

Ermənistan tərəfinin ölkəmiz ilə razılaşdırmadan Azərbaycanın suveren ərazilərinə "humanitar yük" adı altında avtomobil konvoylarını göndərməsi Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı növbəti təxribatdır. Bu təxribatın Ermənistan dövləti və baş nazir səviyyəsində təşviq olunması qəbuledilməzdir. Bu təxribat bir daha göstərir ki, Ermənistanın "bölgədə gərgin humanitar vəziyyət" iddiaları bu ölkənin qeyri-qanuni fəaliyyətləri davam etdirmək, əsassız siyasi manipulyasiya yolu ilə gərginlik yaratmaq niyyətindən başqa bir şey deyil.

Bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan ərazilərinə yük göndərilməsi cəhdi ilə bağlı açıqlamasına dair şərhində qeyd olunub.

"Ermənistan tərəfi, Azərbaycanı qondarma "soyqırımı" cəhdlərində təqsirləndirmək əvəzinə, Ermənistan ərazisindən azərbaycanlıların məcburi şəkildə deportasiyasına, öz yurd-yuvalarından qovulan zaman insanların kütləvi ölüm hallarına, Azərbaycan ərazilərinə təcavüz və işğal nəticəsində soyqırımı daxil, insanlıq əleyhinə cinayətlərə, etnik təmizləmə siyasəti və törətdiyi əməllərə görə üzr istəməlidir.

Ermənistan tərəfi həqiqətən də bölgədə sülh və sabitlikdə maraqlıdırsa, o cümlədən Azərbaycanın ərazi bütövlüyü və suverenliyini yalnız sözdə deyil, əməldə də dəstəkləyirsə, bu kimi təhrikçi addımlardan çəkinməli, Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün təklif etdiyi "Ağdam-Xankəndi" yolundan və digər alternativ yollardan istifadəni dəstəkləməlidir. Ermənistan tərəfi, həmçinin Azərbaycanın erməni sakinlərin reinteqrasiyası üzrə səylərinə maneçilik törətməməlidir", - deyə nazirliyin şərhində bildirilib.



# Makronun son çıxış yolu

*İslahatlara ümid bağlayan Fransa prezidenti yeni təzyiqlərlə üzləşib*

**Fransa prezidenti Emmanuel Makron hökumətin tərkibində dəyişikliklərə hazırlaşır. Bunu yaxın vaxtlarda açıqlayacağı barədə anonslar verilir. Bu barədə "France Info" radiosu da xəbər verir. Bu addımın nə ilə əlaqəli olduğu göstərilmir. Lakin Fransanın qeyri-populyar pensiya islahatına müqaviməti və yeniyetmənin polis tərəfindən öldürülməsindən sonra genişmiqyaslı iğtişaşlar Makron üçün ciddi problemlərə çevrilib. Hələlik, "Figaro"-nun məlumatına görə, baş nazir Elizabet Born öz postunu qoruyub saxlayacağı məlumdur.**

Qəzetin yazdığına görə, rəhbərlikdə dəyişiklik 10-a yaxın nazirliyə təsir edəcək. Born "sabitliyi və əsaslı işi təmin etmək üçün" hökumət başçısı vəzifəsində qalacaq", - Makron ötən bazar günü ona telefonla deyib.

Kabinet dəyişikliyi ilə bağlı şayiələr arasında Makron Bornun özünə güvəndiyini vurğulayıb. Bütün Fransada etirazlara səbəb olan pensiya islahatının qəbulundan sonra prezident hökuməti yenidən işə salmaq üçün baş nazirə 100 gün vaxt verib. Bu müddət iyulun 14-də, milli bayramda - Bastiliyanın alınması günündə başa çatıb.

Parisdə çox "zəif" görünən nazirlərin hökumətdən uzaqlaşdırıla biləcəyini etiraf edirlər. Hökumət rəsmilərindən biri vəziyyəti belə şərh edib: "Bizdə təxminən on əlavə nazir və siyasətdən çox da xəbəri olmayan və demək olar ki, görünməz olan eyni sayda nazir var".



Çərşənbə axşamı Makron nazirləri Yelisey sarayına nahara dəvət edib. Yay tətili öncəsi bu cür qəbullara Parisdə qayda-qanunla baxılsa da, bu dəfə mətbuat bu görüşü məhz hökumətdə gözlənilən kadr dəyişikliyi ilə əlaqələndirib. Rusiya Elmlər Akademiyasının Primakov İnstitutunun Avropa Araşdırmaları Mərkəzinin baş elmi işçisi Marina Klinova bildirib ki, iyulun 14-dək makronist düşərgənin mərkəzini təmsil edən Elizabeth Bornun taleyi aydın deyildi. "Pensiya islahatlarına etirazlarla bağlı sosial münaqişə baş nazirin mövqeyini zəiflətdi. Parlamentdə yalnız doqquz səs Born hökumətinə etimadsızlıq səsvermәsinin qəbulu üçün kifayət etmədi. Müxalifət onu kəskin tənqid edir. Born prezidentin ona həvalə etdiyi çətin işi başa vurdu və "dəmir ledi" Marqaret Tetçerlə dözümlülük baxımından müqayisəyə layiq olan sərt pensiya islahatını həyata keçirdi", - deyə ekspert bildirib.

Onun sözlərinə görə, Fransanın milli bayramı şərəfinə keçirilən parad zamanı baş nazirin həmişəki kimi tribunada prezidentin yanında deyil, Milli Assambleya sədrinin sağında dayanması diqqət çəkib. Dolayısı ilə bu, "rəğbətsizlik" kimi qəbul edilə bilər. Lakin Yelisey sarayının protokol xidməti səhv elan edib. Bornla bir sıra fikir ayrılıqlarına baxmayaraq, Makron tərəddüddən sonra onu baş nazir postunda saxlamaq qərarına gəlib. Bu qərarı Milli Assambleyadakı Milli Mitinq fraksiyasının rəhbəri Marin Le Pen tənqid edərək bildirib ki, bu, "xalqla bütün əlaqəni itirmiş respublika prezidentinin dramatik parçalanmasını" əks etdirir.

İctimai rəyin öyrənilməsi üzrə müstəqil tədqiqat institutu olan Odoxa tərəfindən aparılan sorğulara əsasən, respondentlərin 78%-i hesab edir ki, pensiya islahatının qəbulundan 100 gün keçsə də, prezidentin qarşıya qoyduğu tapşırıqlar yerinə yetirilməyib (onlardan 43%-i son dərəcə sərtdir və onların, ümumiyyətlə, yerinə yetirilmədiyini bildirir). 65% isə baş nazirin dəyişdirilməsinin tərəfdarı olub. Sorğuda iştirak edən fransalıların ən azı dörddə üçü Born kabinetini təhsil sistemində, səhiyyədə islahatların aparılmasında və əmək münasibətlərinin yaxşılaşdırılmasında nəticələrin olmamasına görə tənqid edir. Təxminən 10 nəfərdən 7-si Fransanın yenidən sənayeləşməsində və ətraf mühitin qorunmasında irəliləyişin olmadığını göstərir.

Klinova bildirib ki, artıq baş nazir aparatının rəhbəri ilə dəqiqləşdirmə aparılıb. Bornun sağ əli əmək hüququ üzrə mütəxəssis Jean-Denis Combrexel olacaq. O, təcrübəli menecer sayılır və respublika meritokratiyasının simvolu adlandırılır. Düzdür, o, sahibkarların fikrini daha çox dinlədiyi üçün Ümumi Əmək Konfederasiyası (ÜƏK) həmkarlar ittifaqı tərəfindən də tənqid olunub.

Ekspert hesab edir ki, təhsil və gənclərlə iş üzrə nazir Pap Ndiai və Fransada populyar olmayan Born komandasının bir sıra digər zəif bəndləri hökumətdə daha effektiv, prezident administrasiyasının fikrincə, "daha sürətli və daha enerjili" işləyəcək nazirlərlə əvəz edilə bilər. Bu, xüsusilə səhiyyə və təhsil kimi böyük pulların yatırıldığı və ictimai məkanda az nəzərə çarpan rəqəmlərin rəhbərlik etdiyi sahələrə aiddir. Ekoloji keçid naziri Christophe Bechounun mövqeyi aydın deyil. Eyni zamanda, Silahlı Qüvvələr naziri Sebastien Lecornu hökumətdə favorit kimi qeyd olunur, portfeli ənənəvi olaraq nizam-intizamla əlaqələndirilir. İqtisadiyyat naziri Bruno Le Maireyə gəlincə, onu hökumətdə saxlamaq istəyən "rəğbətlilər" və onun getməsinə üstünlük verən opponentlər respondentlər arasında bərabər bölünür - hər biri 37%.

Payızda Fransada iki mühüm sənəd - 2024-cü ilin büdcəsi və sosial təminatın maliyyələşdirilməsi haqqında qanun layihəsi qəbul edilməlidir. Onlar həmçinin ölkənin Əsas Qanununun 49-3-cü maddəsi ilə (parlamentin təsdiqi olmadan) pensiya islahatı yolu ilə getmək riskini daşıyırlar. Və bu, artıq yenilənmiş hökumətə etimadsızlıq səsverməsi keçirmək üçün yeni cəhdlərlə doludur.

***V.VƏLİ***

***P.S. Məqalədə xarici mənbələrə istinadlar var***

# İran Ermənistana dəstəyini davam etdirir

*Yaxud, Ehsan Movahediyana sifarişi kim verib?*



Vacib olduğu zaman İran Ermənistana hərbi və kəşfiyyat dəstəyi göstərməlidir. Bu haqda Ermənistanın İnfoteka24 xəbər teleqram kanalı Rəsmi Tehrana yaxınlığı ilə seçilən Irdiplomacy saytına istinad edərək yazır. Belə ki, adıçəkilən saytda məqalə ilə çıxış edən iranlı siyasi ekspert Ehsan Movahediyan qeyd edir ki, məhz bu kimi vasitələrlə Türkiyə-Azərbaycan hərbi-strateji əməkdaşlığına mane olmaq mümkündür. Açıq şəkildə fars şovinizmi mövqeyindən çıxış edən iranlı siyasi ekspert sözügedən məqaləsində bu birliyi "regionda ekspansionist tendensiya" adlandırır və eyni zamanda təklif edir ki, İran bu məsələdə Rusiya ilə intensiv danışıqlara başlamalı, Qafqazda Tehranın maraqlarına yaranan "təhlükədə" (?) Rusiyanın razılığı müşahidə edilməməlidir. Üstəlik, İran özünəməxsus geosiyasi ağırlığı və mümkünlüyünü Qafqaz regionunda artırmalıdır.





Siyasi ekspert sözügedən məqaləsində yalnız Türkiyəni və Azərbaycanı deyil, həm də dolayısı ilə Rusiyanı da hədəfə alır və Moskvanı Tehrana qarşı cinahda görür. Ehsan Movahediyan həmçinin digər bir məsələyə - sanksiyalara da toxunaraq bildirir ki, ölkəsi sanksiyaların azaldılması üçün fəaliyyətə keçməlidir və bu vasitə ilə böyük qonşularına qarşı müqavimət imkanlarını artırmalıdır.

Maraqlı məqam isə budur ki, Tehran hakimiyyətinə yaxınlığı ilə seçilən siyasi ekspert sözügedən məqaləsində yalnız Türkiyəni və Azərbaycanı deyil, həm də dolayısı ilə Rusiyanı da hədəfə alır, həmçinin Moskvanı Tehrana qarşı cinahda görür, yaxud belə göstərməyə çalışır. Məhz bu kontekstdən yanaşma edən müəllif mövzunu Ermənistanın üzərinə aparır, İran-Ermənistan birliyi barədə iş marıclar yollayır. Misal üçün, yazır ki, İran mövcud sərhədlərin saxlanılması məsələsində Ermənistanın mövqeyini dəstəkləməli, üstəlik, hərbi və kəşfiyyat dəstəyini göstərməlidir.

### Tehran nə edir?

Eyni zamanda, təkcə bu ifadəyə diqqət yetirək və ilk nəticəni hasil edək: "Ermənistanda İranın populyarlığı artır və bu da Tehrana imkan verir ki, o, "Sünikdə" (Zəngəzurda) hərbi, iqtisadi və mədəni varlığını daha geniş şəkildə artırsın".

Baxın, bu gün Azərbaycan və Türkiyə, həmçinin Rusiya Zəngəzur dəhlizinin blokadadan çıxmasında maraqlarını açıq-aydın ifadə edirlər, nəqliyyat və kommunikasiyaların açılması prosesinin regiona sülh və əmin-amanlıq gətirəcəyini vurğulayırlar. Həm Bakı, həm Ankara, həm də Moskvanın mövqelərinin üst-üstə düşməsi isə inadkarlıq göstərən İrəvanın, əslində isə, revanşçı qüvvələrin əllərinə oynamır, Tehran isə dərhal həmin məsələdən öz məqsədləri üçün istifadə etməyə cəhd göstərir, İrəvana qucaq açmağı üstün tutur. Təbii ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsi müəyyən mənada İranın hansısa maraqlarına cavab vermir, amma bu, o demək deyil ki, Tehran digər ölkələrin daxili diplomatiyalarına və iqtisadi siyasətlərinə müdaxilə etməli, diktəsini irəli sürməlidir. Və buna əlbəttə ki, imkan da verilməz, çünki regionda mövcud olan 30 illik stereotiplər kökündən dağıdılaraq məhv edilib, yeni güclər meydana çıxıb və onların içində Türkiyə-Azərbaycan birliyi də var.

### Tehran həm Qafqazda, həm də Ərəb Birliyində etimadını itirib və bunun da səbəbləri var

Lakin bütün bunlara etina etməyən Ehsan Movahediyan həmin məqaləsində bir az da irəliyə gedərək vurğulayır ki, İranın rəsmi ritorikası, İran mətbuatı və sosial şəbəkələri Ankara ilə Bakının "aqressiv" (?!) siyasətinə qarşı güclü əks-təbliğat maşınına çevrilməlidir və s. Bu, o deməkdir ki, əslində, iranlı analitik ölkəsinin siyasi davranışlarını regional güclərə qarşı aqressivləşdirməyə çağırır.

Göründüyü kimi, bir müddət əvvəl rəsmi Tehranın regionda öz hərbi-diplomatik varlığını, eləcə də mühümlüyünü sübut etməyə çalışması, hətta Azərbaycanla sərhədlərdə hərbi təlimlər keçirməsi belə İranın istədiyi nəticələri vermədi. O cümlədən, İranın xarici işlər nazirinin Moskva səfəri və Kreml uğursuzluğu da bu mənada özünü təsdiq edir ki, Tehran nəinki Qafqazda, hətta Ərəb Birliyi ilə münasibətlərindəki soyuq davranışlarında bütün qonşularını müəyyən mənada itirib, yaxud etimadını qeybə uğradıb - Ermənistandan başqa. Məhz bu baxımdan, Tehran hazırkı situasiyada yeganə çıxış yolunu İrəvanla sıx təmaslarda görür, üstəlik, bəlli adamları vasitəsi ilə hərbi və kəşfiyyat məsələlərində təkliflərini irəli sürür. Onu da nəzərə alsaq ki, iranlı siyasi ekspert öz məqaləsini məhz Tehran iqtidarına yaxın saytda yerləşdirib, bu zaman ona sifarişin də haradan verildiyini asan şəkildə anlamaq mümkündür.

**Afət Tahirqızı**



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

# Milli mətbuat: çevik, operativ və peşəkar gücə necə çevrilməli?

Şuşada keçirilən Media Forumu milli mətbuatımızın gələcək perspektivləri baxımından müxtəlif fikirlərin bolluca səsləndiyi, real təkliflərin masada müzakirə olunduğu məkan kimi də yaddaşlara yazıldı. Ölkənin Prezidenti cənab İlham Əliyevin media ilə bağlı dedikləri də, Forumdakı plenar müzakirələrdə səslən dirilən irad və təkliflər də həm mətbuatımızın hazırkı durumunu daha real görməyə imkan verir, həm də qarşıdakı dövr üçün hansı hədəflər üzərində işləməyimizə yardımçı olur. Bu gün dövlət və güclü ilə medianın yanındadır, həm maliyyə baxımından, həm də bütün məsələlərdə. Dövlətin adından medianın inkişafına dəstək üçün yaradılan MEDİA agentliyi də yarandığı gündən milli mətbuatın ayağa qaldırılması, peşəkar və çevik medianın yaranması üçün var gücü ilə çalışır. Yəni, bunu görməmək, ya da görməzlikdən gəlmək də böyük insafsızlıq, vicdan uzaqlığında olan məsələdir.

Lakin bütün məsuliyyəti və problemlərin çarəsini bütövlükdə dövlətin, MEDİA agentliyinin üzərinə yükləmək, heç bir çıxış yolu düşünməmək, "necə olsa da dövlət yenə də dəstəyini əsirgəməz" yanaşması ilə gün keçirmək qəti yolverilməzdir. Bəs media əhli, jurnalist qurumları nə düşünürlər? Əsasən də, sosial şəbəkələrdəki diletant, xəbər daşıyıcılığından, informasiya sektorundan bixəbər olan təsadüfi adamların "informasiya hegemonluğuna" son qoymaq üçün daha peşəkar və çevik, sistemli mətbuat formalaşdırmağın zamanı deyilmi? Bax, günün ən aktual mövzusu da, sualı da, veriləsi cavabı da budur!

Çünki açıq-aşkar görünən odur ki, getdikcə internet məkanında bu, "media"nın üstünlüyü ələ alması peşəkar mətbuatı kölgədə qoyur. Üstəlik, indi yuxarıda qeyd etdiyim kimi, tam təsadüfi adamlar hərə əlinə kamera, indi dəbdə olan və internetə bağlı smartfon alıb istənilən hadisəni çəkib anındaca sosial şəbəkə hesabına yerləşdirir, ilk xəbər istehsalçısı kimi ortaya çıxır və ən əsası da ciddi və peşəkar mətbuatı oyundankənar vəziyyətə salır. Elədirmi? - Əlbəttə, elədir. Məhz onlar on minlərlə insanın potensial xəbər müştərisinə çevrilirlər. Məhz onlar ictimai rəyə təsir edən psixoloji xəbər üstünlüyünə sahibdirlər, eləmi? - Elədir. Belə olan halda sayt və internet TV-lərdə ciddi medianın hazırladığı xəbər materialları da olur bayat xörək, "ikinci əl xəbərçilik", baxanı da olmur. Belə olan halda peşəkar media sosial şəbəkələrdəki diletant, amma operativ fərdlərə uduzdumu ?- Uduzdu! Sonradan daldan atılan daş kimə dəyir dəysin. Hədəfə ki dəymir...

Mətbuatın hazırkı problemlərindən ən aktualı da jurnalistikanın janrları barədədir. İndi bütün media yalnız və yalnız xəbər janrına köklənib. Mətbuatın hazırkı rentgeninə baxın: təkcə xəbər janrı dəbdədir sadəcə. Bəs analitik yazılar, araşdırmalar, müsahibələr necə oldu? Sanki özümüz bilib-bilmədən milli jurnalistikanı qeyri-peşəkarcasına "budayıb" gedirik. Müasir dünyada da qəzet artıq xəbər daşıyıcısı deyil, fikir daşıyıcısıdır. Avropada qəzet səhifələrini ən aktual mövzulara həsr olunan müzakirələrə, ideya və təkliflərə, analitik yazılara görə oxuyurlar. Hər bir avroalı, məsələn, şou-biznes, idman, ya da başqa sahələr barədə onsuz da sosial şəbəkələrdə, saytlarda oxuyur. Amma qəzet ona ən aktual məsələlər barədə geniş və düşündürücü materiallar təqdim edir. Odur ki, qəzetləri kopya press-relizlərdən xilas edib düşündürücü, samballı analitik materiallarla zənginləşdirsək, inanın, oxucu sayı da genişlənəcək. İnsanlar artıq press-reliz tərzindəki xəbərləri oxumaqdan beziblər. Onsuz da bütün saytlar yamaq kimi bir-birindən kopyalayıb tirajlayırlar bu "xəbərləri". Bəs media üçün spesifik xüsusiyyətləri olan mediaya qan-can verən Pamflet, felyeton, esse, oçerk, parodiya kimi publisistik yazılar harada qaldı? Onlar az tapılan nadir məhsullar kimi qeybə çəkiliblər artıq. Maarifləndirici, ifşaedici karikaturalardan istifadə haqda heç danışmağa dəyməz.

Beləliklə, peşəkar medianın sıradan çıxmaması, nüfuz və təsirini saxlaması üçün ciddi işlərə başlamaq vaxtıdır. Burada həm dövlətin, həm də cəmiyyətin rolu vacibdir. Media ən əvvəl həm də öz oxucu kütləsi ilə işləməli, onun istək və maraqlarını öyrənməlidir. Bu, olduqca önəmli məqamdır.

Və ən əsas məsələlərdən birinə də nəzər yetirək. Mütləq medianın maliyyə bazası, öz ayağı üstündə yaşamaq potensialı olmalıdır. Dövlətin dəstəyi öz yerində, amma peşəkar, ixtisaslaşmış medianın ayağa qalxması üçün media subyeklərinin öz maliyyə bazası formalaşmalıdır. Reklam bazarının bu məsələdə öz rolu var. Mütləq mediada reklam bazarı məsələsi həllini tapmalıdır. Diqqət edin: Azərbaycan mediası həm də informasiya müharibəsi aparır. Dünya arenasına çıxmaq, Azərbaycan həqiqətlərini çatdırmaq üçün həm peşəkar, həm də yaxşı maliyyə bazası olan media faktoru çox-çox önəmlidir. Mediamızın problemləri, üstündə işləniləsi məqamlar çoxdur. Əsas məsələ o dərdlərə çarə tapmaq, peşəkar, çevik, köklü mediaya sahib olmaq, sosial şəbəkələri başına alıb gedən diletant "informasiya bazarına" yerini göstərməkdir. Sivil, yaradıcı və yüksək peşəkarlığı işə salmaqla!

# Ərköyün uşaqlar, bədbəxt gələcək...

**HƏYƏCAN TƏBİLİ**

Təəssüf ki, böyütdüyümüz uşaqların tərbiyəsinə heç də hamımız eyni düşüncə prizmasından baxmırıq. Aramızda buna daha çox diqqət edənlər də, uşağın nazı ilə oynayanlar da, onunla həddindən artıq qaba davrananlar da var. Birincini çıxmaq şərtilə digər iki yanaşma səhvdir və uşaqların gələcək həyatına mənfi təsir edən amillərdir. O amillər ki, bu gün verdiyimiz tərbiyənin sabah ağrısını çəkən də özümüz olacağıq. Belə isə nə üçün bunu bu gündən fikirləşmirik? Nə üçün uşaq tərbiyəsində bəzən bilə-bilə, bəzən də bilməyərəkdən, lakin öyrənmək də istəmədən səhvə yol veririk? Söhbətimizi bu mövzu ilə davam etdirək ki, bəlkə bəzi valideynlər gec olmadığını anlayıb, uşaqlarının gələcək bədbəxtliklərinin qarşısını bu gündə ala bilsinlər...

## Ev, ailə, uşaq...

Təbii ki, evlərimiz kimi ailələrimiz də bir-birindən çox fərqlənir. Kimi kirayədə yaşayır, illərdir ki, bir ev almaq üçün cəhd edir, lakin hələ də bunu reallaşdıra bilmir. Kimi ortabab bir evdə ömür sürür, kimi isə 2-3 mərtəbəli gözəl həyətli evdə yaşayır. Kiminin evində ət çəkməyə bir maşını yoxdur, evin xanımı hələ də paltarları əlində yuyur, bir televizoru yoxdur ki, uzun gün ərzində onunla başını qatsın, digər bir xanım isə bütün günü televizorun qarşısındadır, bütün işlərini qulluqçular görür. Ətçəkən, paltaryuyan maşınının hansı markaya məxsus olduğundan xəbəri yoxdur. Bunlar kimi bir-biri ilə kəskin ziddiyyətdə olan onlarla misal çəkmək olar.

Lakin ailələrdə dünyaya göz açan uşaqların hər biri yaşadığı evlərdən, valideynlərinin fərqli vəziyyətindən asılı olmayaraq eynidir: məsum, körpə, təmiz və pak. Onlar Allah-təala tərəfindən bizə bəli, bu formada bəxş olunurlar. Uşaqlarımızın ailəmizə gəldiyi gündən etibarən tərbiyəsi, yetişdirilməsi, ona aşılananlar isə sırf valideynlərlə bağlıdır. Bu məsum körpələrin gələcək xoşbəxtliyinin də, bədbəxtliyinin də açarı valideynlərin əlindədir. Həmin gündən ata-ana tək valideynə-uşaq sahibinə deyil, həm də qoruyucuya, tərbiyə edənə, yetişdirənə çevrilirlər. Elə mövzumuz da budur. Bəs hər valideyn bunları bacara bilirmi? Övladını gələcək üçün mükəmməl yetişdirə, tərbiyə edə bilirmi? Yoxsa evlər, həyatlar, yaşayışlar kimi, uşaqlar da fərqli böyüyür?..

## Ərköyünlüyün acı nəticəsi

Bəli, evlər, ailələr, həyatlar, yaşayışlar kimi, uşaqlarımız da fərqli böyüyürlər. Yəni bunu hər birimiz yaxşı görür və bilirik. Uşaqların ərköyün böyüdülməsi isə heç də ailənin varlı, kasıb olmasından irəli gəlmir. Təminatlı ailələr var ki, orada uşağa verilən tərbiyə çox mükəmməl şəkildə olur. Məsələn, illər öncə yaşadığım rayonda birinci katib vardı. Onun övladları ərköyünlükdən kənar uşaqlar idi. Biri bacımın, biri isə mənim sinif yoldaşım idi. Onlar o qədər mehriban, sadə uşaqlar idilər ki... O vaxt uşaq idik. Bütün bunları çox da yaxşı anlamırdıq. Bu günün prizmasından onların bizimlə birgə məktəbə getməsini, oynamasını, söhbətlərini



xatırlayanda həqiqətən onların ərköyünlüyü, özlərini bizdən fərqli hesab etmələri ilə bağlı heç nə yada düşmür. Lakin valideynləri vəzifədə olan digər uşaqlar da məktəbimizdə təhsil alırdı. Onlar demək olar ki, sinif yoldaşları ilə danışmırdılar. Geyimləri, çantaları ilə fərqlənirdilər. Onları həm də məktəbə maşın aparıb gətirirdi. Bax bu bir-birindən fərqli iki misal- həm də hər ikisinin imkanlı ailələrə məxsus olması iki ailənin övladlarının özlərini necə aparması ilə ümumilikdə ailələrin verdiyi tərbiyəni nümayiş etdirirdi.



Uşaqlar kiçik yaşlarından düzgün tərbiyə edilməlidir. Onlara hər istəyinin yerinə yetirilməsinin mümkün olmadığı ətraflı izah edilməlidir. Valideynlər var ki, uşaq nə istədisə, təcili şəkildə onu həyata keçirməyə başlayırlar. Bu isə uşaqda alışqanlıq yaradır. O, düşünür ki, nə istəsəm, o da olacaq. Bu günlərdə marketdə ata-ana və yanlarındakı 3-4 yaşlı oğlan uşağının timsalında xoşagəlməz bir mənzərə ilə qarşılaşdım. Uşağın qucağı dolu idi. Baxdım ki, əlinə keçəni götürür. Onun bu hərəkəti isə valideynlərinə sanki ləzzət edirdi. Elə bil uşaqları ilə qürur duyur, ona daha da yaxşı imkan yaradırdılar ki, nə istəyirsə, götürsün. Onlara sonadək baxmağı, nəticəni gözləməyi qərara aldım. Seyr etdikcə də yaxınlarda bir ana və qızla bağlı mənzərə də xəyalımda canlandı. Qızcığaz anasından gəlincik istəmişdi. İçdən, amma sakitcə ağladığını da görmüşdüm. Lakin anası onu o qədər astadan, qəlbinə toxunmadan başa salırdı ki... "Qızım, bu dəfə yox, növbəti gəlişimizdə alacağam. Axı sənə evdə demişdim ki, bu dəfə başqa şeylər almaq üçün gedirik. Sən yadından çıxardınmı evdəki söhbətimizi?" Uşaq anasını dinləyir, gəlincik istəyini də dəf edə bilmirdi. Odur ki, birdən anasının ayaqlarını qucaqlayıb necə hıçqırdısa, mənim kənarda ürəyim parça-parça oldu. Lakin tərbiyənin bu forması da ürəyimcə oldu. Yaxınlaşıb gənc anaya, "sənə halal olsun",- dedim.

Marketdəki budəfəki ata-ana isə baxdım ki, uşağın götürdüklərini qoynundan əsla çıxarıb arabaya qoya bilmir. Uşağın götürdükləri qucağındaca kassaya yaxınlaşdılar. Orada isə zor-bəla ilə onları uşaqdan qoparıb pulunu ödəyib yenidən qucağına doldurdular.

Budur, gözlərim qarşısındakı hər iki hadisə "dil açıb" uşaqlara verilən tərbiyədən danışır. Ərköyün və ərköyünlükdən uzaq uşaqlardan söhbət açır. Bu gündən onların gələcəyini gözlər önünə gətirir.





Onu da vurğulamaq yerinə düşər ki, bütün etdiyi hərəkətlərə, söydüyü söyüşlərə görə valideynləri, nənə-babaları tərəfindən alqışlanan uşaqlar minlərlədir. Əməldayılar var ki, uşaqlara söyüş öyrədir, sonra da onu danışdırıb gülürlər. Nənə-babalar var ki, uşağı başına çıxarır. Uşaqsa evə qonaq gələndə də nənə-babanın çiynindən, başından enmir, onlarsa bundan qürur duyurlar. Uşaq var ki, nə isə istəyəndə ayağını yerə çırpır, bir xeyli ağlayır, lakin sonda öz dediyi olur. Artıq ikinci-üçüncü dəfə sözsüz ki, yenə də uşağın dediyi olur, çünki artıq tərbiyənin təməli səhv qoyulmuşdur.

Lakin uşaqlar da var ki, ailəsinin imkanlı olmasına baxmayaraq düzgün tərbiyə edilir. Ona hədiyyələr hər gün yox, ad günündə, bayramlarda alınır. İstədiyi hər şey də alınmır. Ona mədəni şəkildə başa salınır ki, bu, sən istədiyin kimi deyil, bu cür olmalıdır. Lakin kasıb ailələr də var ki, uşağın istəklərini qonşudan-qohumdan borc pul almaqla həyata keçirir. Beləliklə həm öz ailə büdcəsinə, həm də övladının gələcəyinə zərbə vurmuş olur. Valideynlər də var ki, uşaqla ümumiyyətlə, qaba davranırlar ki, bu da qətiyyən düzgün deyil.

Bütün bunların fonunda belə qənaətə gəlmək olar ki, uşağın ərköyün yetişdirilməsi heç də varlı-kasıb olmaqla deyil, düşüncə, təfəkkür məsələsi ilə tənzimlənir.

## Bu gün güldürənlər sabah ağladacaq

Düşüncə və təfəkkürümüzün bəhrəsi olan tərbiyə metodunu tətbiq etməklə övladlarımızı bəzən doğru yetişdirmirik. Bu gün onların ərköyünlüyünə, şıltaqlığına gülürük, başımıza çıxarırıq. 2-3 yaşlı uşaq bizim seçdiyimiz paltarı geyinmir, ayağını yerə çırpır ki, mən öz istədiyimi geyinəcəyəm. Kiçikyaşlı uşaq bişirdiyimiz yeməyi yemir, ayağını yerə çırpıb öz istədiyini tələb edir. Oyuncaqları ilə aqressiv davranır, bizsə anlaya bilmirik ki, bu aqressivlik sabah onda başqa cür təzahür edəcək.

Uşağımız dərs oxumaq istəmir, biz də videosunu çəkib, sosial şəbəkələrdə paylaşırıq, gülüş toplayırıq. Bu gün azyaşlı övladımıza ərə getməklə bağlı nələrisə öyrədib, sonra da videosunu çəkib paylaşırıq. Camaatı özümüzə güldürürük. Fəxr edirik, qürur duyuruq ki, bizim övladımız hamını güldürür.

Yeməməsi, yatmaması, istəklərini, ayağını yerə döyməsini, başlarda, çiyinlərdə gəzməsini, marketdə başımıza açdığı oyunları, xoşuna gəlməyən hədiyyəni gözlərimiz qarşısında parçalamasını, istəmədiyi yeməyi boşqab ilə birlikdə yerə çırpmasını qonşulara, qohumlara fəxrlə, qürurla danışırıq, hansı ki, bunlar çox utandırıcıdır. Bunlar uşağımızın deyil, bizim nə olduğumuzu göstərən amillərdir. Hələlik o, uşaqdır. Onunla bağlı nə görünürsə, deməli, o, bizik. Bizim səviyyəmiz, bizim düşüncəmiz, bizim tərbiyəmizdir.

Sabah isə bizim olanlar övladımıza məxsus olacaq. Artıq sabah bütün bunlar bizi güldürməyəcək. Ərköyünlüyün, özbaşınalığın, şıltaqlığın nəticəsi olaraq uşağımız müftəxor, özünü bəyənən, yekəxana, qədirbilməz olacaq. Bu kimi xüsusiyyətlər isə bizə göz yaşından savayı heç nə verməyəcək. Böyüdükcə övladımızın qayğıları da böyüyəcək, istəkləri də artıq kiçikölçülü qalmayacaq.

Bunları qarşılaya biləcəyikmi? Yenə də onun hərəkətləri bizi güldürə biləcəkmi?

Bu gün ərköyün etdiyimiz uşaqlar sabah məktəbdə müəllimin də başına çıxmaq istəyəcək, sinif yoldaşları ilə kobud davranacaq. Axı həmişə onun istədiyi olub, bağçada da, məktəbdə də, uşaqlar arasında da istəyəcək ki, onun dediyi olsun, səhv-düz, fərqi yoxdur. Bu gün istəkləri anında yerinə yetirilən uşaq bunun məktəbdə də belə olacağını istəyəcək. Lakin orada bu, belə olmayacaq axı.

Bugünkü istəklər sabah öz yerini daha bahalı geyimlərə, gəzməklərə, yeməklərə, əyləncələrə verəcək. Bu isə bəzən imkan xaricində olacaq, bəzənsə özünəməxsus problemlər yaradacaq. Belə olanda üzümüz güləcəkmi?

Ərköyün böyütdüklərimiz sabah cəmiyyətdə özünü apara bilməyəcək. Dalaşacaq, kobudluq edəcək, qaba davranacaq, nəticədə söyüləcək, döyüləcək, həbs olunacaq. Bütün bunlar necə, bizi güldürəcək, yoxsa ağladacaq. Belə isə bunlar haqqında bu gün düşünmək lazımdır. Sabah gec olar.

***Mətanət Məmmədova***

# Musiqi tariximizə iz salanlar

## 28 iyul Azərbaycanın xalq artisti, Dövlət mükafatı laureatı, professor Vasif Adıgözəlovun doğum günüdür

Görkəmli bəstəkar, Azərbaycanın xalq artisti, Dövlət mükafatı laureatı, professor Vasif Adıgözəlov böyük musiqiçilər nəslinin layiqli nümayəndəsidir. O, ötən əsrin 50-ci illərinin ikinci yarısında yaradıcılığa başlayan Azərbaycan bəstəkarlarından biridir. 1935-ci il 28 iyul tarizində Bakıda məşhur muğam ustası Zülfü Adıgözəlovun ailəsində anadan olan Vasif Adıgözəlov ilk musiqi təhsilini konservatoriyanın nəzdindəki 10 illik musiqi məktəbində pianoçu kimi alıb. 1953-cü ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası) daxil olur. Mənbələrdə qeyd olunur ki, O. bəstəkarlıq üzrə Qara Qarayevin sinfində təhsilini davam etdirir. 1959-cu ildə həmin təhsil ocağını iki ixtisas üzrə bitirir. Müəllimi Qara Qarayevin ənənələrini davam etdirərək, V.Adıgözəlov milli incəsənəti müasir musiqi mədəniyyətinin nailiyyətləri ilə zənginləşdirib. Vasif Adıgözəlovun yaradıcılığı vaxtilə Qara Qarayevin müasir bəstəkarlar haqqında dedikləri sözləri ilə xarakterizə olunur: ”Əgər sənətkar öz dövrünün ideyaları və hissləri ilə yaşayırsa və əgər onları öz dövrünün vasitələri ilə əks etdirmək üçün dəqiq və doğru forma tapırsa - bu novatorluqdur. Biz hamımız vasitələr axtarırıq - bunlar adi və qeyri-adi ola bilər. Lakin hal-hazırda hamısı yalnız və yalnız fikri ifadə etmək üçün lazımdır”.



V.Adıgözəlov öz əsərlərində milliliyin müasirliklə uğurlu sintezinə nail olub. Bəstəkar Azərbaycan xalq musiqisinin bütün janrlarının bədii ifadə vasitələrindən və inkişaf prinsiplərindən məharətlə istifadə edib. Xalqımızın muğam sənətinə dərin bələdliyi nəticəsində o, öz əsərlərini milli muğamlarımızdan qaynaqlanan xüsusiyyətlərlə yaddaqalan edib. Vasif Adıgözəlovun yaradıcılığı müasir Azərbaycan musiqi sənətinin parlaq səhifələrindən birini təşkil edir. Müxtəlif janrlı əsərlərin müəllifi olan bəstəkar ”Ölülər”, ”Natəvan” operaları, üç simfoniya, dörd simfonik poema, beş musiqili komediya, dörd oratoriya, fortepiano üçün 24 prelüd silsiləsi, variasiyalar, simfonik orkestr və xalq çalğı alətləri üçün konsertlər, fortepiano və skripka üçün konsertlər, yüzdən artıq mahnı, romans, teatr və kino musiqisi ilə Azərbaycan musiqi xəzinəsini xeyli dərəcədə zənginləşdirib. ”Natəvan” operasındakı bütün əhvalatlar məhz Qarabağda (Şuşada) vaqe olduğu üçün V.Adıgözəlov bu cəhətləri nəzərə alaraq operada segaha və ona əsaslanan digər muğam, təsnif və rənglərə söykənir.

Vasif Adıgözəlovun romans və mahnı yaradıcılığı uzun illərdir ki, milli mədəniyyətimizin ən gözəl nailiyyətləri xəzinəsində mühüm yer tutur. Bəstəkarın mahnı və romans yaradıcılığı nəinki Azərbaycanda, hətta sərhədlərimizdən uzaqlarda da geniş şöhrət tapmışdır. Əlbəttə, bir çox romans və mahnıların dillər əzbəri olması gözəl sənətkarlarımız Rəşid Behbudovun, Mirzə Babayevin, Şövkət Ələkbərovanın, Fidan və Xuraman Qasımovaların, ”Qaya” vokal-instrumental ansamblının yüksək ifaçılıq məharəti, incə interpretasiyası ilə bağlıdır.

Bəstəkarın romans və mahnıları görkəmli şairlərimizin sözlərinə yazılmışdır. Rəsul Rzanın sözlərinə ”Yeddi çinar”, Natəvanın sözlərinə ”Qərənfil”, Əliağa Kürçaylının sözlərinə bəstələnmiş ”Ay olmaq istəyirəm” əsərləri dediklərimizə nümunədir.

Qeyd edək ki, V.Adıgözəlovun Natəvanın sözlərinə yazdığı ”Qərənfil” romansı Azərbaycan vokal lirikasında novator əsərdir. Bu bir tək Natəvanın irsinə müraciət deyil, həmçinin lirik-psixoloji romansın yeni növüdür. ”Qərənfil” romansı dinləyicinin yaddaşında milli poeziyamızın nadir incisinin yarandığı dövrün əhval-ruhiyyəsini, üslubunu, estetik təsdiqini canlandırır. Özünün romans və mahnı yaradıcılığında bəstəkar müxtəlif nəsillərin, üslub və yaradıcılıq istiqamətlərinin şairlərinə müraciət edir. Bununla bağlı bəstəkar öz musiqisində hər bir poetik üsluba uyğun musiqi obrazını tapmağa cəhd göstərir. Fortepiano üçün 24 prelüd silsiləsində V.Adıgözəlovun millilik və ənənəviliyə münasibətini görmək olur. Dünya musiqisində geniş intişar tapmış silsilə ənənəsinə müraciət edən bəstəkar, bu ənənələrdən istifadə edərək, silsilə janrını Azərbaycan musiqisində tətbiq etməklə aktual məsələyə toxunub. Müəllifin fortepiano üçün 24 prelüd silsiləsi Avropa musiqi ənənələrinin mənimsənilməsi və onların milli musiqi mədəniyyətində tətbiqi baxımından Azərbaycan fortepiano musiqisinin dəyərli nümunələri sırasındadır. Milli ənənələrin faydasını, varisliyin mahiyyətini qoruyan, XX əsrin müxtəlif təmayüllərinə dərindən bələd olan sənətkar yeni yazı üsullarından geniş istifadə edir. Burada yeni təfəkkür tipinin nailiyyətləri, fortepianonun qeyri-adi səs çalarları, yeni texniki üsulları, simfonik orkestrin ayrı-ayrı alətlərinin səslənmə xüsusiyyətləri öz əksini tapmışdır.

Beləliklə, parlaq musiqi tematizmini yüksək peşəkarlıqla davam etdirən bəstəkar, fortepiano silsilə janrında yazıb-yaratmış klassiklərin - Bax, Şopen, Qarayev ənənələrini davam etdirərək, müəllifi olduğu fortepiano üçün 24 prelüd silsiləsinə geniş şöhrət və dinləyici rəğbəti qazandırmışdır. V.Adıgözəlov həmçinin, respublikamızın musiqi həyatında əsas simalardan biri olub. Onun musiqiçi-ictimai xadim kimi geniş fəaliyyəti deməyə əsas verir ki, bəstəkar bir vətəndaş və ziyalı kimi bütün yaradıcılığı boyu Azərbaycan musiqi həyatında fəal iştirak edib, uzun illər Bəstəkarlar İttifaqının fəaliyyətinin təşkilinə böyük məsuliyyətlə yanaşıb.

Sənətkarın ifaçılıq, ictimai fəaliyyəti musiqi tariximizdə əhəmiyyətli yer tutur. Azərbaycan musiqi sənətinin parlaq səhifələrini yaradan V.Adıgözəlov yaradıcılığı müasir bəstərkarlar, ifaçılar üçün bir məktəbdir. Bəstəkar milliliyi qoruyub saxlamağa və Avropa ənənələrini musiqidə tətbiq etməklə özünəməxsus irs yaratmağa müvəffəq olmuşdur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Yaradılan vəziyyət ermənilərin həyasız təxribatından başqa bir şey deyil”







“Azərbaycan tərəfinin dəfələrlə etdiyi xəbərdarlıqlara baxmayaraq 19 yük maşınının 361 ton ərzaqla ”Laçın” sərhəd buraxılış məntəqəsi qarşısında dayanması, əslində, ermənilərin həyasız təxribatından başqa bir şey deyil. Ancaq bu cür avantürist addımların daha ciddi qarşıdurmaya keçməsi, ermənilərin sərhəddə silahlı toqquşma törətməyə cəhd göstərməsi də istisna olunmur”. Bunu ”Alyans” strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov ”Səs” qəzetinə açıqlamasında deyib.





Abutalıb Səmədov qeyd etdi ki, bu cür təxribatlar Brüssel və Moskva danışıqlarından, hər iki vasitəçini təmsil edən rəsmi şəxslərin məsuliyyətsiz bəyanatlarından sonra baş verir. Bu səbəbdən ermənilərin sərhəddə törədəcəkləri təxribatlara görə məsuliyyəti onlarla birlikdə Avropa birliyi, Rusiya Xarici işlər nazirliyi, BMT-nin beynəlxalq məhkəməsi, Beynəlxal Qırmızı Xaç Komitəsi və digər qurumlar da daşıyırlar. Brüsseldə Ağdam yolu ilə humanitar yardımın daşınması barədə əldə olunmuş razılığı pozan və Əsgəran yolunu beton plitələrlə bağlayan erməni separatçılarının hərəkətlərinə obyektiv qiymət vermək əvəzinə onların haray-həşirinə örtülü dəstək verən beynəlxalq qurumlar bir daha nə qədər iqtidarsız və ədalətsiz olduqlarını bütün dünyaya nümayiş etdirdilər”.

”Ermənistan Baş naziri sülh danışıqlarından və hər iki dövlətin bir-birinin ərazi bütövlüyünü tanıdığını qeyd etsə də, Azərbaycanla razılaşdırmadan humanitar yardım adı altında Laçın sərhəd keçid məntəqəsinə avtomobil karvanını göndərməsi dedikləri ilə əməllərinin üst-üstə düşmədiyini demək olarmı” sualına cavabında A.Səmədov bildirdi ki, N.Paşinyanın razılaşdırılmış məsələlərin ziddinə bu cür pozucu hərəkətlər etməsi ilk dəfə baş vermir: ”Bundan əvvəl də Ermənistan Baş naziri tərəfindən dəfələrlə atılan imzalara, verilən bəyanatlara qətiyyən uyğun olmayan addımlar atılıb. Məlumdur ki, Praqa sammitindən sonra N.Paşinyan Azərbaycanın ərazi bütövlüyünü və Qarabağ üzərində suverenliyini qəbul etdiyini rəsmi şəkildə elan etdi. Ancaq ötən ay onun təklifi ilə Ermənistan Qarabağa 7,5 milyon dollar dövlətlərarası kredit ayırmaq barədə qərar qəbul etdi. Bu cür addımlar göstərir ki, Ermənistan hakimiyyəti ciddi tərəfdaş kimi qəbul olunmağa layiq deyil və onlar yalnız qarşıda güc hiss etdikdə konstruktiv mövqe tutmağa, reallıqları qəbul etməyə başlayırlar. Sərhəddimizdə növbəti ”şou” düzəldib, danışıqlar prosesinə zərbə vuran N.Paşinyanın-”əgər humanitar yardım buraxılmasa, bu, Azərbaycanın soyqırım törətmək məqsədini təsdiq edəcək”- bəyanatı onun nə qədər səviyyəsiz siyasətçi olduğunu bir daha ortaya qoyur. Çox təəssüf ki, biz bu cür adamlarla danışıqlar aparmaq və ”sülh sazişi”nə nail olmağın yollarını axtarmaq məcburiyyətindəyik. Ancaq bütün təxribatlara baxmayaraq sülh danışıqları bundan sonra da davam etdiriləli, kimin sülh istədiyi, kiminsə pozuculuq fəaliyyəti ilə məşğul olduğu bütün dünyaya nümayiş etdirilməlidir”.

***GÜLYANƏ***




# "TIR şousu" və qurbanlıq ermənilər

**Ermənistan tarixinin növbəti iyrəncliklərini təqdim etməkdədir. Dünyada qəbul olunmayan separatçılığı açıq şəkildə dəstəkləyən rəsmi İrəvan müxtəlif adlar altında Azərbaycan ərazilərində yetişdirdiyi və 44 günlük müharibədə başı əzilən ordusunun tör-töküntüsünü yenidən dirçəltmək, işini sona çatdırmaq üçün müxtəlif təxribatlar həyata keçirməkdədir. Ona bu əməlini həyata keçirməkdə xarici legitim və qeyri-legitim subyektlər geniş şəkildə dəstək olurlar. Azərbaycana qarşı siyasi, iqtisadi, yeri gələndə isə hərbi təzyiqlər etməklə Ermənistanın arzusunu çin etmək niyyətini gizlətməyən həmin güclər bu dəfə də İrəvanın ifasında icra olunan "tır şousu"na dəstək verməkdədirlər.**

Bəli, Ermənistan Azərbaycana qarşı yeni hərbi təxribatlar hazırlayır. Son günlər erməni rəsmiləri və Qarabağdakı separatçılar ordumuza qarşı hərbi təxribatlara əl atacaqları barədə müxtəlif siqnallar verirdilər. Ötən gün Dövlət Sərhəd Xidməti (DSX) Ermənistana qəti şəkildə xəbərdarlıq edərək, İrəvan hakimiyyətini insidentdən yayınmağa çağırıb. Əks tədbirdə sərhədçilərimizin cəza tədbirlərinə əl atacağı qeyd olunub. "Əldə edilmiş məlumata əsasən, "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfdən olan girişində iyulun 26-da Ermənistan tərəfindən müxtəlif nəqliyyat vasitələrinin toplanmasını təşkil etməklə nümayişkaranə şəkildə növbəti təxribat əməli planlaşdırılır. Ermənistan tərəfini bu kimi təxribat məqsədi daşıyan və vəziyyətin gərginləşməsinə xidmət edən əməllərdən çəkinməyə çağırırıq. Bir daha bildiririk ki, mümkün təxribat əməllərinə görə bütün məsuliyyət tam şəkildə Ermənistan tərəfinin üzərinə düşəcəkdir", - DSX-dən bildirilib.

Sosial şəbəkələrdə yayılan məlumatlara görə, Ermənistan hakimiyyəti Qarabağa humanitar yük adı ilə avtomobillər yola salıb. Belə bir addımın atılması sərhəddə qarşıdurma yaratmaq niyyətindən irəli gəlir. Bütün bunlar göstərir ki, Ermənistan rəhbərliyi sülhün təmin olunmasında maraqlı deyil.

## Sərhəddə yeni təxribat nə ilə nəticələnəcək?

Ermənistan isə sərt gücün tətbiqini tələsdirmək istəyirlər. Çünki bununla beynəlxalq aləmdə bu hadisələri öz lehlərinə çevirmək üçün çalışacaqlar. Azərbaycan da bütün bu hiyləgər planları bildiyi üçün təmkinli davranır.

2022-ci ilin dekabr ayından etibarən Ermənistanın qeyri-qanuni fəaliyyətinə qarşı etiraz aksiyalarına baxmayaraq, gün ərzində Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) daxil olmaqla, yüzlərlə nəqliyyat vasitəsinin Laçın yolundan keçidi həyata keçirilib. "Laçın" sərhəd-buraxılış məntəqəsinin təsis edilməsindən sonra da gün ərzində məntəqədən tənzimlənən və şəffaf qaydada hər iki istiqamətə keçid təmin olunub.





Azərbaycan dövləti sərhəddə təxribatların törədilməsini planlaşdırılmış hiyləgər addımlandırıb. Azərbaycan tərəfinin reinteqrasiya təklifinə qarşı tərəfdən heç bir müsbət reaksiya gəlməyib. Sərhəddə təxribatların törədilməsi Azərbaycanın təkliflərinə qarşılıq kimi qəbul edilməlidir. Rəsmi Bakının Ermənistan tərəfindən göndərilən yükləri Laçından buraxmayacağını bilən ermənilər sərhəddə təxribatlar törətməyə çalışacaqlar. Silahlı insident də istisna deyil. Ermənistanın məqsədi qarşıdurmaya səbəb olmaq, nəticədə dünya ictimaiyyəti qarşısında günahsız, aciz kimi özünü göstərməkdir. Belə olan halda Azərbaycanın qarşısında iki yol var. Ya ermənilər inteqrasiya ilə bağlı təklifimizə müsbət cavab verməli, ya da hərbi əməliyyatlar keçirilməlidir. Biz yeni əməliyyatları ermənilərin təxribatlarına qarşı keçirəcəyik.

Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin erməni tərəfinin yaydığı saxta təbliğat və siyasi manipulyasiyalara əsaslanaraq, 26 iyul tarixli bəyanatda bölgədə vəziyyətə dair sərgilədiyi yanaşma təəssüf doğurur. Bu sətirlər isə Azərbaycan Xarici İşlər Nazirliyinin Cozep Borelə verdiyi cavabdandır. Qeyd edilib ki, Azərbaycan tərəfi Avropa İttifaqının bölgədə sülh və sabitliyin bərqərar olması, Ermənistanla sülh prosesi üzrə danışıqlara verdiyi dəstəyi yüksək qiymətləndirir. 2020-ci ildə 44 günlük müharibədən sonra ölkəmizin milli təhlükəsizliyinə, ərazi bütövlüyünə və suverenliyinə təhdid olmaqda davam edən erməni silahlı qüvvələrinin ərazilərimizdən tam olaraq çıxarılmaması ilə yanaşı, Laçın yolundan istifadə etməklə Ermənistanın qeyri-qanuni fəaliyyətlər aparmasına, Azərbaycan ərazilərinə silah-sursat, eləcə də mina daşınmasına, Azərbaycanın təbii sərvətlərinin Ermənistana aparılmasına Azərbaycan tərəfinin etirazlarına heç zaman məhəl qoyulmaması və gördüyü legitim tədbirlərin Laçın yolunun bağlanması kimi təqdim edilməsi kökündən yanlışdır.

Eynilə, Beynəlxalq Ədalət Məhkəməsinin məlum qərarlarının açıq-aydın şəkildə yanlış şərh edilməsinin heç bir nəticə verməyəcəyi aydın olmalıdır. Azərbaycanın öz sərhədlərinə nəzarət etmək hüququnu bir daha təsdiq edən və Ermənistanın Laçın sərhəd nəzarət buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbinin əsassız olduğunu sübut edən 6 iyul tarixli qərar bir daha göstərib ki, Azərbaycanın öz təhlükəsizliyini qoruması legitim tədbirdir.

İrəvandan Qarabağa göndərilən 400 ton yük daşıyan 19 TIR-ın məxsus olduğu şirkətlə bağlı həqiqətlər üzə çıxıb. TIR-ların aid olduğu "Spayka" şirkətinin 44 günlük müharibə zamanı Gürcüstan üzərindən Ermənistana hərbi yük daşımağa cəhd etdiyi məlum olub. Sosial şəbəkələrdə 2020-ci ilə aid olduğu deyilən fotoda TIR-lardan birinin yük hissəsi hərbi maşının yerləşdirildiyi görünür.

Ötən ilin dekabr ayından etibarən Ermənistanın qeyri-qanuni fəaliyyətinə qarşı etiraz aksiyalarına baxmayaraq, gün ərzində Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) daxil olmaqla, yüzlərlə nəqliyyat vasitəsinin Laçın yolundan keçidi həyata keçirilib. Azərbaycan tərəfindən Laçın sərhəd buraxılış məntəqəsinin təsis edilməsindən sonra da gün ərzində məntəqədən tənzimlənən və şəffaf qaydada hər iki istiqamətə keçid təmin olunub. Laçın buraxılış məntəqəsinə qarşı 15 iyun tarixində silahlı hücuma, qaçaqmalçılıq cəhdlərinə, eləcə də 26 iyul tarixində "humanitar yük" adı altında avtomobil konvoyları göndərilməsi təxribatına baxmayaraq, Azərbaycan tərəfi bölgədə fəaliyyət göstərən BQXK ilə əməkdaşlığını davam etdirərək erməni sakinlərin tibbi məqsədlə keçidini təşkil edib, BQXK vasitəsilə tibbi yüklərin gətirilməsinə imkan yaradıb.

Daha böyük yüklərin Azərbaycan ərazisinə gətirilməsinə gəldikdə, Ermənistandan irəli gələn təhdidlər nəzərə alınmaqla, "Ağdam-Xankəndi" və digər alternativ yollardan istifadə edilməsi təklifi ilə çıxış edib. Bu təklifin Avropa İttifaqı, BQXK daxil, beynəlxalq tərəfdaşlar tərəfindən müsbət qarşılanmasına baxmayaraq, Ermənistan tərəfinin və özlərini yerli erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslərin buna mane olması, yolları bağlayaraq yüklərin daşınmasının qarşısını alması, "gərgin humanitar vəziyyət" barədə spekulyasiyaların siyasi manipulyasiyadan başqa bir şey olmadığını sübut edir.



Azərbaycan beynəlxalq öhdəliklərinə sadiq olmaqla yanaşı, öz ərazisində qeyri-qanuni fəaliyyətlərə legitimlik qazandırılması cəhdlərinin qarşısını qətiyyətlə alacaqdır.

## Hikmət Hacıyevin cavabı

Azərbaycan Prezidentinin köməkçisi -



Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Nikol Paşinyanın Qarabağa göndərilən yükün guya "həyati əhəmiyyət kəsb edən ərzaq malları" olmasına dair tvitinə cavab verib. Prezidentin köməkçisi yazıb: "Brüsseldə razılaşdırıldığı kimi, Ağdam-Xankəndi yolu bütün növ yüklərin daşınması üçün tam hazırdır. Amma bu yoldan istifadəyə imkan verməmək, yerli sakinləri girov kimi istismar etmək, malların çatdırılmasını imitasiyasını aparmaq spekulyasiya, manipulyasiya və şantajdan başqa bir şey deyil. Ermənistan Azərbaycana qarşı ərazi iddialarına son qoymalı, qüvvələrinin bir hissəsini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmalı və qanunsuz marionet rejimini maliyyələşdirməyi dayandırmalıdır".

H.Hacıyev Avropa İttifaqı ölkələrinin, həmçinin Türkiyə, ABŞ və İsveçrə səfirlərinin iştirakı ilə keçirilən görüşdən sonra qeyd edib ki, Ermənistan tibbi evakuasiya və çatdırılma üçün istifadə edilən Laçın yolu məsələsində siyasi manipulyasiya və spekulyasiya ilə məşğuldur. Xankəndindəki separatçıların marionet "liderləri" yerli əhalini öz siyasi ambisiyalarının girovu kimi saxlayırlar. Xatırladıb ki, Brüsseldə Ağdam-Xankəndi yolunun daha böyük həcmdə çatdırılma üçün istifadə edilməsi barədə razılıq əldə olunub. Bu, BQXK-nın bəyanatında da təsdiqlənib. "Təkcə Laçın yolundan istifadə etməkdə israrlı olmaq, amma Ağdam yolundan imtina etmək, yolu bağlamaq, siyasiləşdirmək yolverilməzdir. Beynəlxalq ictimaiyyət Ağdam-Xankəndi yolundan istifadə edilməsi və Qarabağın erməni əhalisinin Azərbaycana reinteqrasiyası ilə bağlı aydın ismarış verməlidir. Başqa yol yoxdur! Oyun bitdi!", - deyə H.Hacıyev əlavə edib.

## Prezidentin xüsusi nümayəndəsindən xatırlatma

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən məlumat verildiyi kimi, Ermənistan tərəfindən nəqliyyat vasitələrini cəmləməklə Laçın dövlət sərhədindən keçid məntəqəsində siyasi manipulyasiya və propaqanda məqsədilə təxribata cəhd göstərilir. Azərbaycan Respublikası tərəfindən müxtəlif səviyyələrdə bəyan edilib ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərə malların daşınması üçün Ağdam-Xankəndi yolu istifadə oluna bilər. Bu sözləri Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

O, qeyd edib ki, yolun texniki və təbii göstəriciləri, xüsusilə işğaldan sonra yenidən qurulmaqda olan Bərdə-Ağdam yolu malların daha sürətli və səmərəli şəkildə çatdırılmasına imkan yaratdığı halda, özünü qondarma rejimin təmsilçiləri adlandıran şəxslərin bu yoldan istifadədən imtina etmələri tamamilə başa düşülən deyil. Burada məqsəd siyasi şou və siyasi möhtəkirlikdən başqa bir şey deyil. Bir daha bildiririk ki, Ağdam-Xankəndi yolu malların daşınması üçün açıqdır. 15 iyun tarixində Laçında sərhədçilərimizin atəşə tutulması, qaçaqmalçılıq hallarına cəhd edilməsi daxil olmaqla, Ermənistan tərəfinin sözügedən təxribatı, bu ölkənin məkrli təcavüzkar siyasətdən əl çəkmədiyinin bariz nümunəsidir.

Bu təxribat bir daha göstərir ki, Ermənistanın "bölgədə gərgin humanitar vəziyyət" iddiaları bu ölkənin manipulyasiyası və qeyri-qanuni fəaliyyətləri davam etdirmək niyyətindən başqa bir şey deyil. Qeyd edilən təxribatda Avropa İttifaqının Ermənistandakı Missiyasının və diplomatik korpusun da alət



edilməsi, bunun əvvəlcədən planlaşdırılmış addım olduğunu nümayiş etdirib.

## Türkiyədən reaksiya

Məsələyə Türkiyə tərəfinin də reaksiyası özünü çox gözlətməyib. Açıqlamasında Türkiyə Ordusunun təqaüddə olan kontr-admiralı Cihad Yaycı deyib ki, son günlər Ermənistanın "cəsarətlənməsi" və onların Azərbaycana qarşı təxribat hazırlığı göstərir ki, işğalçıların arxasında Rusiya dayanır. Rusiya açıq şəkildə olmasa da, gizli yollarla Ermənistana dəstək verir.

"Ermənilər Rusiyanın Türkiyəyə qarşı münasibətini dəyişdirəcəyini düşünür. Rusiyanın taxıl sazişindən imtina etməsindən sonra situasiyanın onlar üçün faydalı olacağını hesab edərək, ruslara arxalanmağa başlayıblar. Ermənilər ruslardan cəsarət alıb, təxribat hazırlığı görür. Türkiyənin bu məsələyə açıq münasibət göstərməsini gözləyirəm. Qarabağın hər bölgəsi Azərbaycanındır. Gizli yollarla Qarabağ gəlmək yolverilməzdir və orada Azərbaycanın istəyindən əlavə dəhlizin açılmasından söhbət belə gedə bilməz. Sadəcə olaraq Ermənistan Rusiyadan cəsarət tapıb. Rusiyanın da üstüörtülü şəkildə Ermənistana dəstək verdiyini görürük",- Cihad Yaycı bildirib.




Qeyd edək ki, Qərb ölkələri arasında Azərbaycan və Türkiyənin uğurlarını, birliyini həzm edə bilməyənlər var. Ermənistanın bəzi təkliflərini Qərb dairələri dəstəkləyir. Azərbaycan və Türkiyəyə qarşı şər ittifaqı yaradıblar. Ermənistanı təxribata təhrik edib, ona müxtəlif yollarla dəstək verməklə Azərbaycanı və Türkiyəni çətin vəziyyətdə qoymaq istəyirlər. Azərbaycan və Türkiyə şər ittifaqının bütün təkliflərinə, addımlarına qarşı dik durmalıdır. Qarabağ Azərbaycanındır. Məhz bu səbəbdən Qarabağa başqa bir yerdən dəhliz açılması yolverilməzdir. Qarabağ Azərbaycan torpağıdır. Bütün dünya bu reallığı qəbul etməlidir. Bununla bağlı açıq mövqe ortaya qoymaq lazımdır. Türkiyə də Ermənistana gömrük qapılarını açmaq məsələsini dayandırmalıdır.

Qeyd edək ki, son günlər erməni rəsmiləri və Qarabağdakı separatçılar ordumuza qarşı hərbi təxribatlara əl atacaqları barədə müxtəlif siqnallar verirlər.

## "TIR şousu" nəyə hesablanmışdı?

Sülh danışıqlarından yayınan Ermənistan tərəfi Azərbaycanla sərhəddə vəziyyəti gərginləşdirmək üçün növbəti dəfə təxribata əl atıb. İrəvan rəhbərliyi heç bir fakta söykənməyən "Qarabağda humanitar böhran" tezisini yenidən gündəmə gətirərək, siyasi manipulyasiya variantını işə salıb. Ssenariyə uyğun olaraq, ötən gün humanitar yük daşıdığı deyilən TIR-lar Azərbaycanla sərhədə göndərilib. Belə bir addımın atılmasında məqsəd "ermənilərin acından ölməsi"ni səhnələşdirmək idi. Təbii ki, Azərbaycan səbir nümayiş etdirərək, ermənilərin təxribat cəhdlərini anındaca zərərsizləşdirdi və XİN tərəfindən yayılan rəsmi press-relizdə İrəvanın TIR şousunun gerçək mahiyyəti beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı.

Humanitar yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunun açıq olduğu barədə qarşı tərəfə Azərbaycanın rəsmi mövqeyi açıqlansa da, Ermənistan tərəfi müxtəlif bəhanələrlə bu təklifdən imtina etməklə, əslində niyyətlərinin Qarabağda yaşayan ermənilərə yardım etmək deyil, onları təxribata sürükləmək olduğunu ortaya qoydu. İrəvanın "TIR şousu"nda kənar qüvvələrin rolu var. Çünki Ermənistan həmişə olduğu kimi davranır. Baş nazir Nikol Paşinyanın ölkəmizin ərazi bütövlüyünü tanıdığını bəyan etməsi, sonra da Azərbaycana yardım göndərməsi başa düşülən deyil. Baş nazir ikili oyun qurmağa çalışır. Ölkəmizdə yaşayan ermənilər də Azərbaycan vətəndaşıdır. Dövlət onların sosial, humanitar, ümumi olaraq maddi və digər təminatlarını həyata keçirməyə qadirdir.

Qeyd edək ki, Azərbaycana hansısa ölkənin yardım etməsi qəbuledilməzdir. Əgər lazım olsa ölkəmiz dost ölkələrə müraciət edər. Qarabağda yaşayan erməni vətəndaşlarımıza gəldikdə isə, onların lazımi materiallarla təchizatı üçün daha uyğun olan Ağdam-Xankəndi yolu var. Dünəndən başlanan olayları Ermənistan və Avropa İttifaqının nümayəndələrinin birgə şousu da adlandırmaq olar. Bununla da Azərbaycanın nəbzini yoxlamaq istəyirdilər. Amma Hikmət Hacıyevin dediyi kimi, oyun bitdi!

***V.VƏLİYEV***



# Fuad Qəhrəmanlı cildini dəyişir

İnsan fərqli düşüncəyə, təfəkkürə malik başqa bir şəxsin mütəmadi olaraq eyni sözü təkrarladığını, eyni yalanları dediyini və ya arzuolunmaz hərəkətlərə yol verdiyini göröndə narahat olur və nəhayət, etirazını bildirir. Tənbeh, qınaq müəyyən hallarda müsbət nəticəsini verir. Lakin gəlin razılaşaq ki, elə insanlar, xüsusilə də dağıdıcı müxalifət düşərgəsində təmsil olunan şəxslər arasında eləleri var ki, onlara qarşı ictimai rəy də sərt münasibət sərgiləndə də, nəticəsi yoxdur. Yəni, yalana, iftiraya, şər və böhtana öyrəncəli olan müxalif funksionerlər ənənəvi amplualarından çıxış edirlər. Sual oluna bilər, niyə dağıdıcı müxalifət islah oluna bilmir? Nədən onlar milli və dövlətçilik maraqlarına qarşı düşmən kəsiliblər? Yenə meydan dövrünə qayıtmaq xəyalındadırlar? Dialektikanın qanunudur: hər şey əvvəl-axır başlanğıc nöqtəsinə qayıdır. Lakin dərk edilməlidir ki, Azərbaycan azad, demokratik, hüquqi dövlətdir. Hər şey xalqın maraq və istəyinə, dövlətin mənafeyinə uyğun qurulub. Burada keçmişə qayıtmaq, yenidən anormal çağırışlarla çıxış etməyə yer yoxdur. 30 il işğal altında olmuş ərazilərimizin düşmən tapdağından azad edilməsi Azərbaycanın gücünə güc qatdı. Artıq dünya birliyi istənilən məsələdə Azərbaycanla razılaşır, ideya və təkliflərini birmənalı şəkildə dəstəkləyir.



### Fuad Qəhrəmanlı separatçı ermənilər kimi danışır

Görünən ondan ibarətdir ki, xarici məkrli qüvvələr ölkəmizin hərbi, siyasi, iqtisadi gücünün artmasından narahat olurlar. Bu baxımdan çalışırlar ki, Azərbaycanın sürətli inkişafına əngəllər yaratsınlar. İstifadə olunan qüvvə isə dağıdıcı müxalif ünsürlərdir. Fikir verin, hal-hazırda "Laçın" sərhəd keçid məntəqəsi yaxınlığında ermənilər arxalandıqları xarici himayədarlarının Ermənistandakı təmsilçilərinin iştirakı ilə təxribatlar törətməyə hazırlaşırlar, AXCP İdarə Heyətinin üzvü Fuad Qəhrəmanlı sosial şəbəkələrdəki statuslarında erməniləri dəstəkləyən ifadələr qeyd edir. Bildirir ki, onlara humanitar yardımların çatdırılması müsbət dəyişikliklərin yaranmasına təkan ola bilər. Təbii ki, Qarabağdakı erməni əsilli Azərbaycan vətəndaşlarına dövlətimiz humanitar yardımların göstərilməsinə etiraz etmir. Lakin bu yardımların çatdırılması birinci növbədə Azərbaycanın müvafiq qurumları ilə razılaşdırılmalı, ikincisi isə yardımlar Ağdam-Xankəndi yolu ilə daşınmalıdır. F.Qəhrəmanlı isə humanitar yardımın Arayik Artunyanın və digər separatçıların dedikləri kimi, "Laçın" sərhəd keçid məntəqəsi vasitəsi ilə daşınmasını daha məqbul hesab etdiyini bildirir. Digər bir ikrah doğuran fakt: "Sülh danışıqlarında "Qarabağ ermənilərinə Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuş hüquq və azadlıqları verəcəyik" vədi diplomatik baxımdan öz təsirini itirmiş sayılır". İlk baxışdan belə anlaşılır ki, bu cümlə, Koçaryana, Sarkisyana, Vardanyana, Arutunyana və hansısa başqa bir "yan"a aiddir. Amma belə deyil. Bu, içimizdəki "yan"lardan olan, yenə də separatçılarla eyni mövqeyi bölüşmək "qəhrəmanlığı" nümayiş etdirən Fuad Qəhrəmanlıya aiddir. Hansı ki, dəfələrlə Qarabağda aparılan təmizləmə əməliyyatları zamanı F.Qəhrəmanlı, digər əqidə dostları ilə birlikdə ermənilərin "hüquq və azdlıqları"nın müdafiəsindən danışırdı. Yəni açıq şəkildə Müzəffər Ordumuzun qalibiyyət zəfərindən narahat olduqlarını nümayiş etdirirdi.

### Fuad Qəhrəmanlı həm də Əli Kərimlinin tapşırıqlarını yerinə yetirir

2021-ci ilin sentyabrında ordumuz Qaragöl istiqamətində mövqelərini irəli çəkib, möhkəmləndirmə işləri apararkən F.Qəhrəmanlı "şefi" Əli Kərimlidən aldığı təlimata əsasən Sevinc Osmanqızının, Qənimət Zahidin internet tv-lərinə çıxıb, yerdəyişmələrin yolverilməz olduğunu və bunun Avropa təşkilatları ilə Azərbaycan arasında problemlərin yaranmasına gətirib çıxaracağını bəyan etmişdir. Bu kimi sərsəmləmələr, Ermənistandakı revanşistlərsayağı açıqlamalar onu deməyə əsas verir ki, həqiqətən də F.Qəhrəmanlı erməni lobbisindən qidalanır və açıqlamalarını onların sifarişləri əsasında edir. Söz yox ki, AXCP sədri Əli Kərimlinin də təsiri var. Nəzərə almaq lazımdır ki, Ə.Kərimli F.Qəhrəmanlını himayə edən, ona müəyyən yardımlar göstərən şəxslərdəndir. Bir qədər əvvəl F.Qəhrəmanlı qızına və yoldaşına qarşı zorakı və qəddar hərəkətlər edən zaman cəmiyyət ona sərt etirazını bildirdi, Ə.Kərimli isə ona haqq qazandırdı. Məhz bu baxımdandır ki, F.Qəhrəmanlının qızı Selcan Yağmur yazdığı statusunda Əli Kərimli və Fuad Qəhrəmanlını birləşdirən ortaq cəhətlərdən biri də zorakılıq, qadın hüquqlarına saygısızlıq olduğu qeyd olunmuşdur.

Hətta AXCP üzvləri və kollegial orqanların təmsilçiləri ailədə törətdiyi zorakı əməllərinə görə, F.Qəhrəmanlının partiyadan xaric edilməsini tələb edərkən Ə.Kərimli susmağa üstünlük verdi. Sadəcə, formal da olsa, onu sədr müavinliyindən azad etməklə, təpkilərdən özünü qorumağa çalışdı. Az sonra isə, F.Qəhrəmanlı idarə heyətinin üzvü və sədr müavini kimi internet tv-lərə müsahibələr verib, tədbirlərdə çıxışlar etdi. Görünür, bu kimi məsələlərə görə, F.Qəhrəmanlı Ə.Kərimlinin qarşısında özünü borclu hesab edir və "Yurd" şefinin hər bir tapşırığını yerinə yetirməklə onun xəcalətindən çıxmağa çalışır. Sual yaranır, həm erməni lobbisinin, həm də Ə.Kərimlinin tapşırıqlarını yerinə yetirmək F.Qəhrəmanlıya çətinlik yaratmır ki?

*İ.ƏLİYEV*



# Gözləmə, qorxma, soruşma...

**Lalə Mehralı**

Onu estradanın ən təvazökar siması kimi xarakterizə edirlər. Qeyri-adi istedada, nadir xarizmaya malik və eyni zamanda, təəccüblü dərəcədə təvazökar bir insan - Müslüm Maqamayev. Heç vaxt ulduz xəstəliyinə yoluxmadı, heç vaxt ədəbini pozmadı, heç vaxt efirə və dinçəyiciyə hörmətsizlik etmədi. Maqomayevin səsi hansı ölkədən gəldisə, hansı sarayda konsert verdisə anşlaqla keçdi. Sovet İttifaqı ölkələrinin hər biri onu öz oğlu bilirdi. Müslüm oxuyurdusa bütün səslər kəsilirdi, Müslüm oxuyurdusa insanlar böyük hörmətlə dinləyirdi.

Müslüm Maqomayevin 20-ci əsrin ikinci yarısının sovet səhnəsinin ən səs-küylü və əfsanəvi sənət adamı idi. Onun konsertləri konsert saraylarında olanda yer tapılmırdı, stadionlarda olurdu konsertləri. Minlərlə insan stadionlara toplaşırdı və record sayda albomları satılırdı. Hələ 20 yaşında Helsinkidə keçirilən Ümumdünya Tələbə Festivalında laureat oldu. Məhz bundan sonra onun haqqında "dünyanı fəth edən səs" kimi danışmağa başladılar.

Onun möcüzəsi nədə idi? Cavab sadədir - tembrdə. Maqomayevin vokal aləmində tayı-bərabəri olmayan tembrə malik yüksək diapazonlu lirik baritonu var idi. Vokalın kralı məhz kişi baritonudur, baxmayaraq ki, bütün dünyada tenorun əsas səs olduğu barədə hələ də israrlı və yanlış fikir mövcuddur. Məsələ burasındadır ki, başqa səslərə xas olmayan o məxməri güc baritonun özündədir. Bariton, dinləyəndə maxsimal hissi reaksiyanı oyandıran ən uyğun səs tonudur. Müslüm Maqomayevin insan orqanizmində aktiv rezonansa səbəb olan nadir tonu vardı. Bu səs tonu gənc Müslüm aristokratioyası ilə vəhdətdə dahi Maqomayevi yaratdı.

Təbii ki, Müslüm Maqomayevin dinləyici anlamında da bəxti gətirmişdi. Onu dinləyənlər ən azı onun qədər aristokrat ruhlu və əsl sənətdən anlayanlar idi. Təsəvvür edirsiniz? Milyonlarla əsl sənət aşiqi. Onu dinləyənlər ədəbi, hörməti, pərəstişi ilə Müslüm Maqomayevi daha da ucaltdılar. Bir sözlə, Müslüm bu dünyaya lazım olan anda gəldi və bununla da adını tarixə yazdırdı.

İnsanlar Müslüm Maqomayevi səmimi qəlbdən sevirdilər. Sadə insanlar, məmurlar, SSRİ rəhbərliyi onun sənətinə sitayiş edirdi. SSRİ-nin o vaxtkı dövlət başçısı Leonid Brejnev Maqomayevin yaradıcılığına pərəstiş edirdi. Azərbaycanın ümummilli lideri Heydər Əliyev onu hətta "oğlum" adlandırırdı.

Müslüm Maqomayev öz həyat prinsipini belə ifadə edirdi: "Gözləmə, qorxma, soruşma". Onun bütün yaxşı xüsusiyyətlərinin yanına inanılmaz dərəcədə zəhmətkeş olması da əlavə edilir. Şöhrətinin ən pik nöqtəsində, ən çox sevildiyi vaxt qəfil səhnədən getdi. Onu tələb etdilər, onu səhnəyə çağırdılar, amma 56 yaşında səhnəni niyə tərk etdiyini belə izah etdi: "Allah hər səsə, hər bir istedada müəyyən qədər vaxt verib, mənim də vaxtım burda bitir". Və beləcə o, ömrünün son 10 ilini səhnəyə çıxmadı, tamaşaçının yadında həmişə şux, qamətli Müslüm kimi qaldı.

Müslüm Maqomayev səhnədən ayrı cəmi 10 il yaşadı, ürək xəstəliyindən dünyasını dəyişdi. Onunla vidalaşmağa minlərlə insan gəldi, onun üçün milyonlar ağladı. Rusiya, Ukrayna, Azərbaycan, Belarus və digər ölkələrin tanınmış dövlət xadimləri sənətkarın vəfatı ilə bağlı başsağlığı verdilər. Səhnələrin ən "utancaq sənətkar"ın xatirəsi həmişəlik milyonların qəlbinə köçdü.

# "Gedib başlarına bir çarə qılmalıdırlar"

POLİTOLOQ ŞƏRH ETDİ

"Moskvadakı Azərbaycan-Ermənistan-Rusiya XİN başçıları arasındakı üçtərəfli görüşdəki gözləntilər son danışıqlardan sonra böyük olmasa da, hər halda balaca bir irəliləyiş var. Bu da ondan ibarətdir ki, birincisi, Rusiya xarici işlər naziri Sergey Lavrov artıq açıq bəyan etdi ki, məsələ həllini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tapmalıdır, buna alternativ yoxdur. Digər tərəfdən, Lavrov demək olar ki, Qarabağda yaşayan bir yığın ermənilərin öz müqəddəratını həlletmə, statusalma və s. kimi cəfəng prinsip və danışıqlarının üzərindən xətt çəkdi". Bu sözləri politoloq Tofiq Abbasov SİA-ya açıqlamasında deyib.





"İlk dəfə idi ki, Rusiyanın xarici siyasət idarəsinin rəhbəri "Dağlıq Qarabağ" ifadəsini işlətmədi. Bildiyimizə görə, görüş başlar-başlamaz onun köməkçisi tövsiyə edib ki, bu ifadə işlənməsin, çünki Azərbaycan bunu qəbul etmir. Bu da demək olar ki, Azərbaycanın istəyi ilə baş vermiş hadisədir. Bunlar kiçik görünsə də, özlərində böyük mahiyyət daşıyırlar. Çünki biz tam əminik ki, Qarabağa vaxtı ilə lazımsız bir adam - Ruben Vardanyanı gətirmək istəyənlər deyəsən indi yavaş-yavaş öz təfəkkür və məntiqlərini durulda bilirlər.

Əgər belədirsə, onda həqiqətən də XİN başçılarının iştirakı ilə baş tutmuş Moskva görüşünün özünəməxsus bir aktivi formalaşdı. Düzdür, indi erməni "bazarı" ayaq üstə qalxıb, yenə də səsküy salırlar ki, "bu niyə belə oldu, niyə Moskva Qarabağ ermənilərinin müqəddəratının həlli üçün əməli dəstək vermir" və s. kimi fikirlər səsləndirilir. Lakin bunlar hamısı demaqogiya siyasətinin tərkib hissələridir. Çünki məsələ həllini 44 günlük müharibə əsnasında tapdı. Ermənistanın nə halı, nə bacarığı, nə də istəyi var ki, yenidən ayağa qalxıb silah-sursata əl atsın.

Düzdür, Makron kimi siyasətçilər erməniləri cuşa gətirməyə, onların yenidən mübarizə aparması üçün meydanda onlara impuls verməyə çalışırlar. Ancaq ermənilərin özləri çox yaxşı başa düşür ki, bu, onların sonu ola bilər. Bu baxımdan, hesab edirəm ki, başıpozuq erməni siyasətçiləri, eləcə də onların təsiri altında olan Qarabağda özfəaliyyət qurmuş "müdirlər" artıq anlayırlar ki, xalqın da yavaş-yavaş səbri daralır və bu davam edəcək. Buna görə də, bu danışıqların Azərbaycanın xeyrinə müəyyən qədər pozitiv tərəfləri oldu. Ermənistan, ilk növbədə də Nikol Paşinyan gərək bu proseslərdən nəticə çıxarsın. Nikon Paşinyan bir gün bir söz deyir, sabah özünü təkzib edir - bir tərəfdən Ermənistanın artıq Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyir, digər tərəfdən Qarabağ erməniləri və onların müdafiəsi, hüquqlarının saxlanılması üçün beynəlxalq mexanizmlər lazım olduğu kimi fikirlər deyir. Ermənistan rəhbərliyinin qeyri-peşəkar və qeyri-sağlam yanaşmasının şahidi oluruq. Bu, özözlüyündə Nikol Paşinyanın ciddi siyasətçi olmadığının göstəricisidir. Ona görə də gedib başlarına bir çarə qılmalıdırlar", - politoloq qeyd edib.

*Aysel Naibli*

# ”Anım mərasimi erməni kilsəsinin iç üzünü dünyaya bəyan edir”





## DEPUTAT ŞƏRH ETDİ

“Tarixi faktlar təsdiqləyir ki, erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik ”Böyük Ermənistan” ideyasını gerçəkləşdirmək məqsədilə azərbaycanlılara və türklərə qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər. Hər il 27 iyul tarixində Ermənistan ictimaiyyəti ”Lissabon 5” adlı anım mərasimi keçirir. Bu tədbir Amerika Birləşmiş Ştatları, Fransa, Livan erməniləri tərəfindən də qeyd olunur. Adətən belə tədbirlərdə erməni ruhaniləri ”öz ləyaqətli ölümləri ilə erməni icmasını sarsıtmış azadlıq uğrunda canlarından keçən qəhrəmanların” şərəfinə rekviyemlər söyləyirlər. 1983-cü il iyulun 27-də Sarkis Abrahamyan, Setrak Acemyan, Vaçe Dağlıyan, Ara Kurcuhliyan və Simon Yahneyan Lissabondakı Türkiyə səfirliyinə daxil olaraq müvəqqəti işlər vəkilinin xanımı Cahidə Mıhçıoğlunu və 17 yaşlı oğlu Atasayı girov götürmüşlər. Portuqaliya Baş naziri Mario Soares hadisəni nəzarət altına almış və hadisə yerinə göndərdiyi 170 polis səfirliyin binası mühasirəyə almışdır: ”Terrorçular diplomatın xanımını və bir Portuqaliya polisini qətlə yetirərək özləri ilə bərabər binanı partlatmışlar. Hadisəyə ABŞ Prezidenti Ronald Reyqan da münasibət bildirmişdir. Terrorçuların xanımı qətlə yetirmələri onu xüsusilə təsirləndirmişdir. O demişdir: ”Biz digər ölkələrin hökumətləri ilə birgə çalışaraq buna birdəfəlik son qoyacağıq”. ABŞ Milli Təhlükəsizlik Şurasının üzvü Oliver North terrorçuların neytrallaşmasına yönəlmiş Milli Təhlükəsizlik Qərarları Direktivi (MTQD) hazırlamışdır. 138 nömrəli həmin MTQD Amerikanın özünü terrorçulardan qoruma hüququnu özündə ehtiva edir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib.

Deputat qeyd edib ki, ”erməni soyqırımının” olduğunu təsdiq edə bilməyən terrorçular özləri dəfələrlə türk xalqlarına qarşı tarixdə analoqu olmayan soyqırımlar törədiblər: ”Çox təəssüf ki, dünyanın bir çox dövlətləri bu dəhşətli faktları görməzdən gəlir. 1970-ci illərdə ”yeni nəsil” erməni terrorçular müxtəlif ölkələrdə, o cümlədən ABŞ və Qərbi Avropa ölkələrində türk diplomatlarının qətlə yetirilməsi ”kampaniyası”həyata keçiriblər. Türk diplomatlarla yanaşı, onların ailə üzvləri və sürücüləri də terror təşkilatlarının hücumuna məruz qalıblar. Belə ki, Türkiyənin İspaniyadakı səfiri Zeki Kuneralpın həyat yoldaşı Necla Kuneralp və sabiq səfir Beşir Balcıoğlu 1978-ci ildə səfirliyə aid avtomobilə silahlı hücum zamanı həlak olublar. Türkiyənin Portuqaliyadakı səfirliyinin attaşesi Erkut Akbayın həyat yoldaşı Nadide Akbay da eyni şəkildə öldürülüb. Türkiyənin Portuqaliyadakı səfirliyinin əməkdaşı Yurtsev Mıhçıoğlu və onun həyat yoldaşı Cahide Mıhçıoğlu da səfirliyə hücum zamanı qətlə yetiriliblər.

Bu sui-qəsdlərin əksəriyyəti ASALA və JCAG terror təşkilatları tərəfindən həyata keçirilib. Bundan əlavə, 1983-cü il iyulun 15-də ASALA terror təşkilatı tərəfindən Türk Hava Yollarının Parisin Orli aeroportundakı ofisinin qarşısına yerləşdirilən partlayıcı maddənin işə düşməsi nəticəsində ikisi Türkiyə, dördü Fransa, biri ABŞ və biri İsveç vətəndaşı olmaqla səkkiz nəfər həlak olub, 28-i türk olmaqla 55 nəfər yaralanıb”.

K.Bayramov sözlərinə davam edərək vurğulayıb ki, bu qanlı terror aktlarına baxmayaraq, ”erməni soyqırımı” iddialarının müdafiəçisi olan Ermənistan rəhbərliyi və diasporu erməni terrorunu unutdurmağa çalışır, terror təşkilatlarının və terrorçuların xatirəsinə müxtəlif tədbirlər keçirir, abidələr ucaldırlar: ”Ermənistanın paytaxtı Yerevandakı ”Yerablur” dövlət hərbi qəbiristanlığında ASALA terror təşkilatının üzvlərinin xatirəsinə ucaldılan abidə və ASALA terrorçularının ”qəhrəman” kimi tanıdılması məqsədilə nəşr edilən kitablar bunun təsdiqidir. Satqın, casus Njdeyə İrəvanın mərkəzində abidə ucaldılması və terrorçu Monte Melkonyanın adının küçəyə verilərək əbədiləşdirilməsi onların iç üzünü aşkar göstərir.

Ermənilər illərdir xarici himayədarlarının dəstəyindən bəhrələnərək beynəlxalq ictimaiyyətdə özləri barədə ”yazıq, məzlum, əzilən, döyülən” millət, azərbaycanlıların isə mənfi obrazını yaradıblar. ABŞ Konqresinin 1992-ci ildə Azərbaycana qarşı ədalətsiz 907-ci düzəlişi tətbiq etməsi də bu təbliğatın nəticəsi idi. Yalnız 2001-ci ildə ABŞ-da baş verən terror aktı rəsmi Vaşinqtonu bu qərarın ədalətsizliyi barədə düşünməyə və onun fəaliyyətini bir illik dondurması barədə qərar qəbul etməyə sövq etdi. Hər zaman qeyd etdiyimiz kimi, dünyanı idarə edən iri dövlətlər bu və ya digər ölkələrə qarşı atılan addımlara, eyni zamanda, baş verən hadisələrə o zaman düzgün dəyər verməyə çalışırlar ki, özləri həmin hadisəni yaşayır. Dövlətimizin başçısı hər zaman bəyan edirdi ki, səbəblərindən asılı olmayaraq, terrorçuluğa haqq qazandırılması haqqında söhbət belə gedə bilməz. 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Gəncədə, Bərdədə, Tərtərdə törətdikləri terror aktları tarixə XX əsrin dəhşətli faciəsi kimi daxil olan Xocalı soyqırımının davamı kimi dəyərləndirildi. Dövlətimizin başçısı İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı 44 günlük müharibə dövründə döyüş meydanı ilə yanaşı, informasiya cəbhəsində aparılan mübarizənin davamı oldu. Bu gün ermənilər yenə də yalanları ilə beynəlxalq ictimaiyyətin diqqətini özlərinə çəkməyə, Azərbaycanın artan nüfuzuna və möhkəmlənən mövqeyinə kölgə salmağa cəhdlər etsələr də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun yazdığı şanlı tarix, həmçinin Ermənistana və ona havadarlıq edənlərə keçilən tarix, hüquq və qürur dərsi bunu mümkünsüz edir. Tarixinə sahib çıxan xalq məğlubedilməzdir.

Vaxt gələcək dünya birliyi ermənilərin bəşəriyyət üçün həm ləkə, həm də təhlükəli olduğu qənaətini qəbul edəcək və Azərbaycan xalqına və ümumiyyətlə, türk dünyaina qarşı tarixən törədilən cinayətlərə və soyqırımına obyektiv qiymət verəcəkdir”.

***Ləman Sərraf***



**MƏTANƏT**

# Tiktok, yoxsa mənəviyyat qəbiristanlığı

***Tiktok sosial şəbəkədir. Sosial şəbəkələrin isə faydalı tərəfləri daha çoxdur. O halda ki, onlardan faydalı istifadə edə biləsən. Lakin biz insanlar bəzən sosial şəbəkələri elə bir vəziyyətə gətirib çıxarırıq ki, onlar artıq qorxunc bir məkana çevrilir. Elə qorxunc ki, uşaqlarımızı, gənclərimizi oradan uzaq tutmaq üçün mübarizə aparmalı oluruq. Bəzən sosial şəbəkə olaraq Tiktoku günahkar da hesab edirik. Lakin anlayanda ki, yox, bu sosial şəbəkənin nə günahı, günahkar bizlərik, onda belə bir sual verək özümüzə, nə üçün belə edirik?***

Budur, Tiktok sosial şəbəkəsini artıq mənəviyyat qəbiristanlığı adlandırmaq olar. Çünki bəzi mənəviyyatdan xəbərsizlər onu mənəviyyat qəbiristanlığına çevirib, orada özlərini dəfn ediblər. Burada elə videolarla, şəkillərlə, təkliflərlə qarşılaşmaq olur ki, başqa qənaətə gəlmək olmur. Qənaət təkdir: mənəviyyat qəbiristanlığı.

Gündən-günə biabırçılığın baş alıb getdiyi bu sosial şəbəkəyə isə insanlar kütləvi şəkildə axın edir. Onların arasında uşaqlar, yeniyetmələr, gənclər üstünlük təşkil edir. Biz axı evdə uşaq ağlamasın deyə əlinə telefon verib başımızdan edirik. O da çəkilir bir kənara, baxırıq ki, saatlarla səsi çıxmır. Fikirləşmirik ki, bu uşaq orada nəyə baxır, qarşısına nə çıxır... Yeniyetmə və gənclərimizin də hər birinin əlində telefonu var, onlar azaddırlar və azad şəbəkələrdən də azad şəkildə istifadə edirlər. Deməli, bütün sosial şəbəkələrdə, həmçinin də Tiktokdadırlar. Nəticədə isə buradakıların hər birini görürlər.

Abır-həyadan vaz keçən, ondan birdəfəlik əl götürən bəzi qadın və kişilər, yersiz və mənasız videolar paylaşanlar, özünü guya ki, nə isə bir iş-güc sahibi hesab edib gün uzunu boş-boş danışmaqla məşğul olan bəzi canlı yayın açanlar, bura uşaqlarının videolarını yerləşdirən valideynlər Tiktokun başına elə bir oyun açıblar ki, bu sosial şəbəkə artıq nifrətəlayiq olub. Təəssüf ki, dəfələrlə tənqid atəşinə tutulmasına baxmayaraq həmin insanlar nəinki ”bəsdir”,- deyirlər, daha da qızışırlar.

Çox təəssüflər olsun. Təəssüflər olsun ki, cəmiyyətimizdə belə qadın və kişilər var. Ağılsız insanlar, valideynlər var ki, boş-boş işlərlə, mənasız, məntiqsiz əyləncələrlə məşğuldurlar. Özlərini biabır etməyi qarşılarına məqsəd qoyublar.

Çarə nədir, bilmirəm. Lakin ey insanlar, heç olmasa, uşaqlarınızı bu sosial şəbəkədən uzaq tutun. Qoy onların dünyaya açılan gözləri belə şeyləri görməsin.

Bir də, ey insanlar, yuxuya getməyin, ayılın, üsyan edin bələlərinə qarşı. İctimai qınaq atəşinə tutun onları. Bəlkə özlərinə bir çəki-düzən verərlər. Bəlkə etdiyimiz qınaq onları düz yola qaytarar. Axı abır-həya, mənəviyyat əldən gedir. Bəs bunların qarşısını kim almalıdır. Bunun yalnız bir əlacı var. O da bizik. Biz istəsək, əl-ələ verib bələlərinə qarşı mübarizə apararıq. Dərman acıdır, lakin faydası olduğu kimi, bəlkə biz də əlac olub bu yazıqların halına acıyaq. Uşaqlarımızın, yeniyetmə və gənclərimizin xətrinə əlac olaq ki, onlar bu cür mənəviyyatsızlıq girdabında daha ağır mərəzlərə yaxalanmasınlar.

# “Çinin Cənubi Qafqazdakı yeni proseslərə yanaşması təqdirəlayiqdir”

“Çin beynəlxalq münasibətlər sistemində vacib yer tutan, BMT TŞ-nın beş üzvündən biridir. Çinin səsvermələr zamanı oynadığı rol hər kəsə məlumdur. Eyni zamanda, qlobal kommunikasiya xətlərinin dəyişdiyi bir dövrdə pekin və Bakı bir-birinə lazımdır. Azərbaycan hazırda Çinin şaxələndirdiyi ticarət yolunun üzərində yerləşir. Son hadisələr onu göstərdi ki, kifayət qədər şaxələndirmə siyasətinə ehtiyac var”. Bu sözləri SİA-ya açıqlamasında Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyib.



Onun sözlərinə görə, Mərkəzi Asiya-Xəzər-Cənubi Qafqaz xətti Qərb və Şərq arasında ticarət məsələlərində çox vacib rol oynaya bilər: ”Son bir neçə ildə bu istiqamətdə çox böyük işlər aparılıb. Böyük İpək Yolu ilə bağlı razılıqlar var. Azərbaycan artıq Bakı-Tbilisi-Qars dəmiryolunu istismara verib. Bu dəmiryolun geosiyasi və geoiqtisadi dəyişikliklərə qədər artıq Prezident İlham Əliyev tərəfindən inşası nəzərdə tutulmuşdu. Azərbaycan bir çox dəniz limanlarının təmir-bərpa və yenidənqurma işləri ilə məşğul olub. Azərbaycan vasitəsilə çox ciddi şəkildə irihəcmli yüklərin ticarətdə rol oynamasından söhbət gedir ki, Pekin bütün bunları nəzərə alaraq dövlətimizlə əlaqələrə böyük əhəmiyyət verir”.

Politoloq sözlərinə davam edərək bildirib ki, 44 günlük müharibə və ondan sonrakı dövrlərdə də Çinin Cənubi Qafqazdakı yeni proseslərə yanaşması təqdirəlayiqdir: ”Bu, kifayət qədər təmkinli və soyuqqanlı bir davranışdır. Azərbaycan Prezidentinin ”China Media Group” media korporasiyasına müsahibəsində toxunduğu bir çox məqamlar ondan xəbər verir ki, hazırda Çinlə münasibətlər inkişaf edən xətt üzrə davam etməkdədir. Eyni zamanda, digər dövlətlərdən fərqli olaraq Çin və Azərbaycan arasında münasibətlər sabit xarakter daşıyır”.



# Dünyada alternativi olmayan multikultural dövlət

Bütün dünyada, eləcə də, islam dünyasında böyük hörmətə, nüfuza malik olan, prinsipial və ədalətli mövqeyi ilə seçilən Azərbaycanın multikultural dəyərləri dünyaya örnək, nümunədir. Bütün dünya ölkələri bu mühitə maraq göstərir. Qeyd edək ki, xalqımızın tarixi keçmişindən qalan tolerantlıq və multikulturalizm prinsipləri ölkəmizin qanunvericiliyində də öz əksini tapıb. Belə ki, Milli Məclis "Dini etiqad azadlığı haqqında", "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanunlar qəbul edib. Müasir dünyada baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması islam dünyasında həmrəyliyin zəruriliyini bir daha əyani surətdə göstərir. Belə şəraitdə Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir. Bu gün Azərbaycan islam həmrəyliyi ideyalarına və mədəniyyətlərarası dialoq ənənələrinə sadiqdir. Azərbaycan öz əqidəsinə, milli dəyərlərinə sadiq bir dövlətdir. Azərbaycan islami dəyərlərə, islam dininə bağlı dövlətdir. Bunun nəticəsidir ki, müasir dövrümüzdə ölkəmizdə islami dəyərlər, multikulturalizm məktəbi və tolerantlıq yeni dövrünü yaşayır. Bu gün tolerantlığın məkanı, multikultural ənənələrə, islam dininə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub-saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır.

### "BİZ HEÇ VAXT İNAMIMIZDAN, DİNİMİZDƏN UZAQLAŞMAYACAQ VƏ BU MƏNƏVİ MƏNBƏLƏRİMİZDƏN İSTİFADƏ EDƏRƏK GƏLƏCƏYİMİZİ QURACAĞIQ"

Ölkədə formalaşan bu və ya digər dəyərlər Azərbaycan cəmiyyətini səciyyələndirir. Azərbaycan dövlətinin qurucusu və memarı olan Ulu Öndər Heydər Əliyev "Biz heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq"- deyirdi. Azərbaycan xalqının adət-ənənələri, milli-mənəvi dəyərləri, mədəniyyəti ilə fəxarət hissi keçirən Heydər Əliyev dini abidələrə, mədəniyyət ocaqlarına ehtiyatla yanaşır, böyük həssaslıqla qayğı göstərdi. 1994-cü ildə Səudiyyə Ərəbistanında rəsmi səfərdə olan Ulu Öndər Heydər Əliyev islam dininə olan yüksək etiqadı, rəğbətinin təcəssümü kimi Məkkə şəhərini və Kəbəni ziyarət etdi. Bir neçə il sonra 1998-ci ildə isə Həcc ziyarətində oldu. Bu islami dəyərlərə olan münasibət idi.

Heydər Əliyev islam dininin insanların mənəvi dünyasının paklanmasında rolunu yüksək qiymətləndirdi:"Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu islam dini özünün mütərəqqi olduğunu və eyni zamanda islam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanları həyatlarında rast gəldiyi çətinliklərdən xilas etməyə, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz peşəsini qoruyub- saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, islam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün islam dininə itaət edən adamların həmisını xoşbəxtliyə və səadətə gətirib çıxaracaqdır". Bəli, bu, həqiqətən də belədir.

### "MÜXTƏLİF DİNLƏR VƏ MƏZHƏBLƏR ARASINDA DOSTLUQ VƏ DÖZÜMLÜLÜK MÜNASİBƏTLƏRİNİN DƏ ALTERNATİVİ YOXDUR"

Bütün tarixi çağlarda aparıcılığı özündə saxlamış Avropa ölkələrinin xalqları islam mədəniyyətinə, incəsənətinə hörmətlə yanaşaraq, bu mədəniyyətlə mübadilənin həyata keçirilməsinə maraq göstərmişlər. İslam öz dəyərləri ilə Qərb dünyasını hər zaman üstələyib. Bu gün dünyada islam həmrəyliyinin gücləndirilməsi üçün böyük işlər görülür. Bu gün fəaliyyətdə olan İslam Əməkdaşlıq Təşkilatı islam ölkələri arasında birliyin gücləndirilməsi, çoxşaxəli əlaqələrin inkişafı, bütün islam xalqlarının azadlıq və milli hüquqlarının qorunmasını dəstəkləmək, beynəlxalq təhlükəsizliyin və sülhün qorunması istiqamətində iş aparır. "İslam dünyasının BMT - si" adlandırılan İslam Əməkdaşlıq Təşkilatı dünya miqyasında əsas məqsədi dini, tarixi, siyasi, mənəvi dəyərlərlə bağlı olan müsəlman xalqlarının firavanlığını və inkişafını artırmaq, onların mənafeyi və maraqları naminə islam həmrəyliyinin möhkəmləndirilməsi, islamı dəyərlərin qorunması olan ən nəhəng və hörmətli müsəlman təşkilatıdır. Tarixi keçmişi, dini, mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanın bu təşkilata üzv olması ilə beynəlxalq aləmdə respublikamızın qarşısında yeni imkanlar açıldı, Azərbaycan beynəlxalq və regional təşkilatlarda təmsil olunaraq dünya siyasətində mövqeyini möhkəmlətmək üçün daha bir addım atdı. Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir.



Multikultural və tolerant dövlət kimi də tanınan Azərbaycanın təsadüfi deyil ki, dünya dövlətləri bu sahədə olan təcrübəsinə maraqlıdır. "Razılıq hissi ilə qeyd etmək istərdim ki, bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Son illər ölkəmizdə beynəlxalq humanitar forumların, dünya dini liderlərinin sammitlərinin keçirilməsi, Beynəlxalq Tolerantlıq Gününün böyük məmnuniyyət hissi ilə ayrı-ayrı konfessiyaların nümayəndələrinin iştirakı ilə qeyd olunması, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında birgə müzakirələrin aparılması bunun bariz nümunəsidir. Bu gün bir sıra ölkələrdə şahidi olduğumuz mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizm və ekstremizmin artması göstərir ki, sülh və əmin-amanlıq axtarışında olan dünyamızda multikulturalizmin alternativi olmadığı kimi, müxtəlif dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin də alternativi yoxdur", - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir. Müasir dünyada baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması islam dünyasında həmrəyliyin zəruriliyini bir daha əyani surətdə göstərir. Belə şəraitdə Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir.

### BAKIDA ERMƏNİ KİLSƏSİ TOLERANTLIĞIMIZIN BARİZ GÖSTƏRİCİSİDİR

Xatırladaq ki, Azərbaycan multikulturalizm ideyasını irəli sürdüyü vaxtda, Ermənistan işğalçılıq siyasətini davam etdirirdi. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkünə çevrilmişdi. BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 nömrəli qətnamələrinə, həmçinin BMT, AŞPA, ATƏT və İƏT Baş Assambleyalarının Ermənistanı qeyd-şərtsiz olaraq təcavüz etdiyi ölkədən qoşunlarını çıxarmağa səsləyən qətnamələrinə baxmayaraq, Ermənistan hələ də beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaqda davam edirdi. Azərbaycanın ermənilər tərəfindən işğal altında olan ərazilərində saysız hesabda abidələri var idi. Bu tarixi abidələr erməni işğalçıları tərəfindən dağıdılmışdır. Tarixi və memarlıq abidələrinə nəzər yetirərkən işğal altında olan nə qədər sayda dini və mədəniyyət abidələri ilə tanış oluruq. Qarğabazar kəndində Cəlil turbəsi, Aşağı Veysəlli kəndində Mirəli turbəsi, Qocəhmədli kəndində məscid binası, Horadiz kəndində məscid binası, Horadiz kəndində İmamzadə turbəsi, Fuzuli şəhərində məscid binası, Aşağı Aybasandı kəndində İbrahim turbəsi və s. onlarla belə tarixi əhəmiyyətli abidələr işğal altında idi.

Ermənistanın işğalı nəticəsində saysız mədəni abidələr dağıdılmışdır. Bütün bunlar Ermənistan tərəfindən Azərbaycana qarşı olan ərazi iddiasının nəticəsində baş vermişdir. Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənələrini, onun mədəni kökünü özündə ehtiva edir. Vaxtilə erməni qəsbkarlarının işğalı altında olan ərazilərimizdəki abidələrin saxtalaşdırılması istiqamətində aparılan işlər Ermənistanın özünü təsdiqləmək, tarixi, mədəniyyətini yaratmaq siyasətinə xidmət edirdi. Ammma Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə baxmayaraq, Bakıda erməni kilsəsi qorunub-saxlanılır. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir. Ermənilərin törətdikləri vandallıqlara baxmayaraq, bu gün işğaldan azad olunan ərazilərimizdəki dini, mədəni abidələr təmir və bərpa olunur.

Bu gün tolerantlığın məkanı, multikultural ənənələrə, islam dininə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub-saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, biz nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya nümunə də göstəririk: "Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk"

***Zümrüd BAYRAMOVA***






# Qəbələnin dünyadan eşidilən səsi

## XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub

Müasir dövrümüzdə Azərbaycanın iqtisadi inkişafını, ölkədə hökm sürən siyasi sabitliyin məntiqi nəticəsi olaraq bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və dünyada təbliği ilə bağlı möhtəşəm layihələr reallaşır. Bu layihələrə dövlət dəstəyinin olması milli mədəniyyətimizin daha geniş bir şəkildə təbliğinə meydan verir. Ölkə rəhbərinin bir-birinin ardınca imzaladığı sərəncamlar mədəniyyət və incəsənətimizin inkişaf etdirilməsində önəmli amillərdir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə Azərbaycanda milli musiqimizin, muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində gerçəkləşən irimiqyaslı layihələr öz nəticəsini verir. Azərbaycan muğamının YUNESKO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması, Muğam Mərkəzinin inşa edilməsi, "Muğam aləmi" festivalının təşkili, "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunun nəfis şəkildə nəşri və s. Azərbaycan muğam sənətinin inkişafına təkan olmaqla yanaşı, Azərbaycan və muğam sənəti ilə bağlı geniş təsəvvürün yaranmasına da səbəbdir. Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə keçirilən beynəlxalq müsabiqə və festivallarda Azərbaycan milli mədəniyyəti Qərb dünyasına yaxınlaşır. Beynəlxalq aləmdə keçirilən sərgilər və Azərbaycan mədəniyyət günləri Şərqlə Qərb mədəniyyətlərinin qovuşmasında bir körpü rolunu oynayır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda Beynəlxalq Muğam Festivalı, Mstislav Rostropoviç adına Musiqi Festivalı, VI Beynəlxalq "Qız Qalası" İncəsənət Festivalı, İkinci Beynəlxalq Aşıq Festivalı, Üzeyir Hacıbəyli, Dmitri Şostakoviç, Bülbül kimi dahi bəstəkarlar və ifaçıların yubileylərinə həsr olunmuş beynəlxalq festivallar da Azərbaycanın real mənzərəsinin təbliğində önəmli rola malikdir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə gerçəkləşən mədəniyyət layihələri sırasında artıq ənənəyə çevrilmiş Qəbələ musiqi festivalının xüsusi yeri var. Qəbələ Beynəlxalq Musiqi Festivalı yenidən dünya musiqiçilərini bir araya gətirdi. Azərbaycan diyarı və onun musiqisi haqqında çox məqamları qonaqlara təqdim edir.




### QƏBƏLƏNİN DÜNYA MUSİQİ XƏRİTƏSİNDƏ YERİ

Qeyd edək ki, Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi altında həyata keçirilən digər mədəniyyət layihələri kimi, Qəbələ festivalı da beynəlxalq sənət aləmində geniş rezonans doğurur. Bu festival sayəsində qədim Qəbələ dünyanın musiqi xəritəsində özünəməxsus yer qazanıb. Son illər Qəbələ çox gözəl və müasir şəhərə çevrilib. Gözəl hotellər, yollar, hava limanı və digər imkanlar tədbirlərin yüksək səviyyədə təşkil olunmasına şərait yaradıb. Bu gün Qəbələnin adı beynəlxalq tədbirlərin təşkil olunduğu şəhərlərin adları ilə bir sıra da çəkilməsi uğurlardan xəbər verir. Qəbələ kimi gözəl bir məkanda beynəlxalq musiqi festivalının keçirilməsi təqdirəlayiqdir. Bu, hər bir azərbaycanlının sevinc, qürur mənbəyidir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə hər il Qəbələdə keçirilən Beynəlxalq Festival artıq Azərbaycanın hüdudlarından kənarda geniş şöhrət qazanmış, dünyanın mədəni həyatında əlamətdar hadisəyə çevrilmişdir. Bu ecazkar diyarda Şərq mədəniyyəti ilə bağlı olan məqamlar iştirakçılara cənnəti xatırladır. Açıq havada kamera, simfonik musiqini dinləmək, muğamın sehrinə düşmək elə cənnəti yaşamaqdır. Real mənzərə Azərbaycanın dünyada nüfuzunun gündən-günə artmasına dəlalət edir. Qədim tarixə və gözəl təbiətə malik Qəbələdə belə bir festivalın keçirilməsinin böyük əhəmiyyəti vardır. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın himayəsi ilə keçirilən bu festivalda çox görkəmli ifaçıların iştirak etməsi mötəbər tədbirin əks-sədasının bütün dünyada çox geniş yayılmasına şübhə oyatmır. Qəbələ festivalı xarici qonaqlara Azərbaycan mədəniyyətini tanıtmaqla yanaşı, çoxsaylı yerli musiqisevərləri dünya bəstəkarlarının klassik əsərləri və məşhur musiqiçilərlə yaxından tanış edir. Bu festival həm də böyük maarifçilik missiyası daşıyır. Dünyanın hər yerindən Qəbələnin səsi gəlir, bu gözəl diyarda isə dünya musiqisi səsləndirilir. Azərbaycan xalqının yüksək mədəniyyətə sahib olduğunu bir daha təsdiqləyir.

### MƏDƏNİYYƏTLƏRARASI DİALOQA BÖYÜK TÖHFƏ

Vurğulayaq ki, iulun 27-də XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının açılışı böyük bir bayram əhvali-ruhiyyəsi bəxş edib. Avqustun 2-dək davam edəcək festival Heydər Əliyev Fondunun təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilir. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan budəfəki Qəbələ Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Böyük Britaniya, Estoniya, Litva, Polşa, Rusiya və Türkiyədən dünyaşöhrətli musiqiçilər - ifaçı və dirijorlar, musiqi kollektivləri iştirak edir. Xatırladaq ki, 2009-cu ildən ənənəvi təşkil olunan festivalda bu dəfə də musiqisevərlər üçün maraqlı proqramlar təqdim ediləcək. Bir həftə ərzində klassik, kamera musiqisi və muğam axşamları təşkil olunacaq. Festival günlərində Bakı Kamera Orkestri, "Clarte" klarnet kvarteti, "Qaytağı" instrumental ansamblı, Litva Kamera Orkestri, Xalq artistləri Ənvər Sadıqov, Fərhad Bədəlbəyli, Gülnaz İsmayılova, Murad Adıgözəlzadə, Ülviyyə Hacıbəyova, Yeganə Axundova, Əməkdar artistlər Emil Əfrasiyab, Fuad İbrahimov, Fəridə Məmmədova, respublika və beynəlxalq müsabiqələr laureatları - Ateş Qarayev, Dennis Həsənov (Rusiya), Elmina Həsənova, Əli Məmmədov, Humay Hacızadə, Mahir Tağızadə, Mustafa Mehmandarov, Nərgiz Kəngərli, Osman Mustafazadə, Rüstəm Zeynalov, Səidə Tağızadə, Ümidə Abasova, Vurğun Vəkilov, istedadlı gənc solistlər, muğam ifaçıları Dmitri Sitkovetski (Böyük Britaniya, dirijor), Mixail Lidski (Rusiya, piano), Henri-David Varema (Estoniya, violonçel), Mariuş Patira (Polşa, violin) və digərləri çıxış edəcəklər.

Görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun anadan olmasının 90 illiyi, tanınmış pianoçu Bella Davidoviçin 95, dahi bəstəkarlar Sergey Rahmaninovun 150 və İohannes Bramsın 190 illik yubileyləri də festival çərçivəsində xüsusi musiqi proqramları ilə qeyd ediləcək.

Təbii ki, mədəniyyət bütün dövrlərdə xalqlararası ünsiyyətin başlıca vasitəsi olub və müasir dünyamızda da baş verən ictimai-siyasi proseslərdə və sivilizasiyalararası dialoqda dünya mədəniyyətlərinin qarşılıqlı münasibətləri mühüm əhəmiyyət kəsb edir.

Nüfuzu ildən-ilə artmaqda olan Qəbələ Beynəlxalq Musiqi Festivalı da mədəniyyətlərarası dialoqa böyük töhfə verən əhəmiyyətli bir tədbir kimi tanınmaqdadır. Hər zaman Qəbələ Beynəlxalq Musiqi Festivalına yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan bu gün də öz təcrübəsindən yararalanaraq, festivalı uğurla başa vurulacaqdır. Bu dəfə də gözəl təbiəti olan Qəbələdə klassik musiqi axşamları insanlarda xoş ovqat yaradacaq. Festivalda çox görkəmli ifaçıların iştirak etmələri mötəbər tədbirin əks-sədasını bütün dünyada çox geniş yayaraq, dünyanın mədəni həyatında əlamətdar hadisəyə çevirir. Festival ildən-ilə böyüyən tamaşaçı auditoriyası və ahəngdar musiqi keyfiyyəti ilə yadda qalır. Festivalın proqramına uyğun olaraq Qəbələ səhnəsində Azərbaycanın və dünyanın dahi bəstəkarlarının əsərləri səsləndirilir. Gənc ifaçılarla yanaşı, dünya şöhrətli musiqiçilər də səhnəyə çıxırlar. Füsunkar təbiəti ilə hər kəsi öz sehrinə salan Qəbələ daha bir musiqi festivalına ev sahibliyi edərək, tarixinə yeni səhifə yazır.

***Zümrüd BAYRAMOVA***

# Niyə sağlam müxalifət formalaşa bilmir?

**Dağıdıcı müxalifət Qubad İbadoğlunun hüquqi məsuliyyətə cəlb edilməsi məsələsindən istifadə edərək qeyri-qanuni çağırışlar etməklə sifariş yerinə yetirir**

Müxalifət daxilində yeni düşüncə sahiblərinin meydana çıxa bilməməsi düşərgədə ciddi problemlərin, həm də qopmaların yaranmasına gətirib çıxarır. Yəni, artıq sıravi üzvlər kollegial orqanlarda təmsil olunan şəxslərin boğazdan yuxarı fikirlərindən yorulduqlarını etiraf edib, çıxış yolunu partiydan istefa verməkdə görürlər. Vəziyyətin ağırlığını partiya funksionerləri də dərk etsələr də, hikkəli və iddialı olmaları səbəbindən digər partiyalarla səmimi münasibətlərin qurulması və partiyalar daxilində demokratik durumun formalaşdırılması mümkün deyil. Bəzən patiya sədrləri tərəfindən əməkdaşlığın qurulması, blokların yaradılması təklifləri irəli sürülür. Lakin hansısa əməkdaşlıq nağılı artıq partiya üzvlərinə belə inandırıcı görünmür. Çünki müxalif liderlərinin bir-birinə qarşı pərdəarxası ittihamları sıravi partiya üzvləri tərəfindən də, hiss edilir və bu da özünü sosial şəbəkələrdə tam çılpaqlığı ilə göstərməkdədir. Beləliklə, yenidən başladılan əks-təbliğat kampaniyası isə növbəti mərhələyə keçid alıb. Bu kimi davamiyyət isə ənənəvi müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verəcək. Dəfələrlə müxalifət partiyaları ictimai nifrətdən qaçmaq üçün müxtəlif blok və qurumlar yaradıblar. Amma fakt budur ki, yaradılan qurumların ömrü çox qısa olub. Birinci partiyaya, aparıcı lider olmaq iddiaları müxalif qurumların işlək mexanizmə çevrilmələrinə imkan vermir.

### Dağıdıcı müxalifət meydan təfəkküründən xilas ola bilmir

İndiki məqamda maraqlarının eyni nöqtədə birləşməsi isə müvəqqəti xarakter daşıyır. Yəni AXCP və "Milli Şura" adlanan qondarma qurum Qubad İbadoğlunun hüquqi məsuliyyətə cəlb edilməsi məsələsindən istifadə edərək



aralarındakı intriqaları kənara qoyub, sifariş əsasında "bilik" nümayiş etdirirlər. Fuad Qəhrəmanlı, Əli Kərimli, Gültəkin Hacıbəyli və digərləri qeyri-qanuni çağırışlar edərək insanları dövlətə qarşı çıxmağa, qanunlara riayət etməməyə meyillendirməyə çalışırlar. Dağıdıcı müxalifət isə əldə olunan uğurlara qısqanclıqla yanaşır. Çünki müstəqil deyillər, maddi və mənəvi dəstək aldıqları xarici qüvvələrdən asılıdırlar. Məhz asılı olduqları üçün ara-sıra xalqa qarş ittihamlar səsləndirir, cəmiyyəti şüursuzluqda ittiham edirlər. Xalqı "bayağı əyləncələrə meyilli" toplum kimi təsvir etməklə siyasi şüura sahib olmadığını, düşünə bilmədiyini iddia edirlər. Söz yox ki, dağıdıcı müxalifətin xalqa qarşı belə acıqlı və qıcıqlı olmasının səbəbi cəmiyyətin onları rədd etməsi, ciddiyə almamasıdır.

### Q.İbadoğlunun qardaşı Vüqar Bayramov: "Cəmiyyətdə ciddi qəbul olunmayan bir sıra fiqurlar və xəbər portalları tərəfindən yayılan spekulyativ açıqlamalar, sadəcə, təəssüf doğurur"

Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri, FETO-çu Qubad İbadoğlunun hüquqi məsuliyyətə cəlb edilməsindən dağıdıcı müxalifətin hay-küy salması, onların FETO-çunun müdafiəçi rolunda çıxış etdikləri anlamı yarada bilməz. Çünki bu, onlarda alınmır. Daha doğrusu, bu günə qədər bir fakt yoxdur, o fakta istinadən qeyd olunsun ki, filan vaxtı, filan partiya funksioneri cinayət məsuliyyətinə cəlb edilən əqidə yoldaşını səmimi şəkildə müdafiə edib. İlqar Məmmədov, Əli İnsanov, məlum cinayət əməllərinə görə, cinayət məsuliyyətinə cəlb edildikləri zaman AXCP, Müsavat, "Milli Şura" rəhbərliyi siyasi maraqları xatirinə onları müdafiə etdiklərini bildirsələr də, reallıqda aşkarlandı ki, "müdafiə"çilər söz oyunu oynayıblar, əslində, İ.Məmmədov, Ə.İnsanov onlar üçün arzuolunmaz partiya sədrləridir. Şübhə yoxdur ki, AXCP, Müsavat, "Milli Şura" və digər sürünənlər sinfinə aid olan məxluqların Q.İbadoğlunu səmimi şəkildə müdafiə etməyə çalışdıqları inandırıcı deyil. Digər tərəfdən, nəyi müdafiə edirlər? Artıq istintaq orqanı tərəfindən Q.İbadoğluna qarşı Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldəetmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb və Nərimanov rayon Məhkəməsi tərəfindən onun barəsində 3 ay 26 gün həbs qətimkan tədbiri seçilib. Hətta qardaşı, deputat Vüqar Bayramov istintaq orqanının Məhkəməyə təqdim etdiyi təqdimatla razılaşdığını bildirib. Onu da qeyd edib ki, son bir həftə ərzində xarici səfərdə olduğu üçün məsələ ilə bağlı medianın suallarını cavablandırmaq imkanı olmayıb: "Bu gündən Bakıdayam, yenə də hörmətli jurnalistlərin fərqli mövzular üzrə suallarını cavablandıra biləcəyəm. Qeyd edim ki, ölkədən kənarda olduğum müddətdə cəmiyyətdə ciddi qəbul olunmayan bir sıra fiqurlar və xəbər portalları tərəfindən yayılan spekulyativ açıqlamalar, sadəcə, təəssüf doğurur. İnanırıq ki, araşdırmalar obyektiv aparılacaq və hüquqi dövlət prinsiplərinə uyğun ədalətli qərar qəbul ediləcək. Eyni zamanda, Qubad bəyin qəbul etdiyi dərman ləvazimatlarının mütəmadi təminatı üçün müvafiq dövlət qurumları ilə təmaslarımı gücləndirərək bu məsələdə də nə mümkündür edəcəyəm. Allah bütün məhbusların qapısını açsın".

Real və səmimi fikirlər V. Bayramovun söylədikləridir. Yəqin ki, Q.İbadoğlunu siyasi maraqları naminə "müdafiə" etməyə çalışanlar V.Bayramovun açıqlamasından dərs götürəcəklər.

***İ.ƏLİYEV***

# Kondisionerdən istifadə zamanı nələrə riayət olunmalıdır?

*AYDINLIQ GƏTİRİLDİ*



Qızmar yay aylarını kondisionerlərsiz təsəvvür etmək olmur. Lakin kondisionerlərin də insanların sağlamlığına zərərli olduğu məlumdur. Kondisionerlərin zərərləri barədə həkim-terapevt Sübhan Hacıyev SİA-ya danışıb: "Yay aylarında, xüsusilə də çox isti zamanlarda hər kəsin kondisionerlərdən istifadə etdiyi bir vaxtda unuduruq ki, kondisionerdən düzgün olmayan və şüursuz istifadə hər zaman orqanizmimizə daha çox ziyan vermiş olur. Belə ki, kondisionerlərdə olan, xüsusilə də təmizlənməyən, yuyulmayan və filtrləri dəyişdirilməyən kondisionerlərdə bir çox bakterial infeksiyalar, kif göbələkləri, hətta nadir görülən və ağır fəsadlara yol açan legionella pnevmofilia kimi bakteriyalar da olur. Çox insanlar olan yerlərdə bu kondisionerlərin istifadəsi zamanı bu cür bakterial infeksiyaların hava yolu ilə tənəffüs yollarından insanlara çox rahatlıqla keçməsi, bronxit, pnevmoniya kimi ağır xəstəliklərə yol aça bilir. Eyni zamanda, bir çox kondisionerlərin 21-22 dərəcədən daha aşağı dərəcədə olduğu bir vaxtda uzun müddət istifadəsi tənəffüs yollarının allergik xəstəliklərinə yol açır. Buraya daha çox farengit, allergik rinit kimi xəstəliklər daxildir və gözlərdə sulanmaya qədər gətirib çıxaracaq bir prosesdir. Bəzi insanlar var ki, yatanda kondisionerin birbaşa üstlərinə vurmasına üstünlük verirlər. Kondisionerin isə bilavasitə bədənə vurması ağır sinir və əzələ iltihabı ilə nəticələnə bilir, miozitə, hətta üst sinirin iflicinə qədər gətirib çıxara bilir.

Kondisionerlərin istifadəsi üçün müəyyən qazların mübadiləsi baş verir və kondisionerlər işə düşərkən öncə benzol turşusu kimi qazı otaq havasına verir. Əgər bu otaq havası gün ərzində müntəzəm dəyişdirilməzsə baş-beyin-qan dövranına, tənəffüs yollarına təsir göstərir və bu da özünü ürəkbulanma, baş gicəllənmə, baş ağrıları və tənəffüs yollarında qıcıqlanmalar kimi simptomlarla özünü göstərir. Hətta kondisionerdən uzun müddət istifadə edildiyi mühitdə qalındığı zaman insan dərisində quruluğa, sallanmalara gətirib çıxara bilir. Çünki kondisioner quru hava verir və havada olan nəmi azaldır".

"Buna görə də kondisionerdən hər zaman düzgün istifadə etməyi tövsiyə edirəm. Belə ki, kondisioner dərəcəsi 22-25 dərəcədən çox və ya az olmasın. Kondisionerlərin vaxtlı-vaxtında yuyulmasına, filtrlərinin dəyişdirilməsinə nəzarət etmək lazımdır. Kondisionerlərdən istifadə edərkən onun havasının birbaşa bədənə, tənəffüs yollarına təmas etməməsinə diqqət etmək lazımdır. Kondisionerli otaqlarda isə mütləq şəkildə bir neçə havanın dəyişdirilməsi, sirkulyasiya olunması tövsiyə edilir", - həkim bildirib.

***Aysel Naibli***



Elçin Bayramlı

# Qocalan Azərbaycan: Uşaqpulu kimə və niyə verilməlidir?

Əhalinin 30 yaşa qədər olan hissəsinin ümumi əhali sayında yüksək çəkisinə və artımına görə Azərbaycan uzun müddət gənclər ölkəsi adlanıb. Amma bu vəziyyət tədricən dəyişir. Artıq əhalinin qocalması prosesi müşahidə olunur. Təkcə son 10 ildə Azərbaycanda yaşlı əhalinin xüsusi çəkisi 6,2 faizdən 7,2 faizə yüksəlib. 0-19 yaş qrupunda əhalinin sayı 1,6 faiz azalıb, 60 yaşdan yuxarı əhalinin sayı isə 65 faiz artıb.

BMT-nin Əhali Fondunun proqnozlarına görə, 2050-ci ildə Azərbaycanda qocalar üstünlük təşkil edəcək. Həm beynəlxalq təşkilatların proqnozları, həm real zamanda müşahidə etdiyimiz tendensiyalar demoqrafik fəlakətə doğru getdiyimizi aydın göstərir. Uşaqlar və ailələrlə bağlı statistikalar da vəziyyətin təhlükəli olduğunu sübut edir. Eləcə də pensiyaçılar və əhalinin yaş balansı ilə bağlı statistikalar. Burada rəqəmləri səsləndirib sizi yormaq istəmirəm, bunlar tez-tez mediada dərc olunur. Artıq 1 uşaqlı ailə modelinə keçmişik, nadir halda 2 və ya 3 uşaqlı ailələrə rast gəlinir. Normal ailə isə 3 uşaqdan başlayır. Bir xalqın, cəmiyyətin mövcudluğunu qoruması üçün ən minimum halda 1 ailədə 3 uşaq olmalıdır. Artım üçün isə 4 və daha çox uşaq.

Son 5-6 ildə uşaqların sayı 4 faiz, ümumi əhalidə payı 6 faiz azalıb. Ümumi əhalidə yaşlıların payı isə artır. Faktiki olaraq əhalinin qocalması prosesi gedir. Bu təkcə mənəvi-psixoloji problem deyil, həm də siyasi-iqtisadi problemdir. Yaşlı əhalinin xüsusi çəkisinin artması dövlət üçün maliyyə cəhətdən əlavə yükdür, iqtisadi aktivliyin azalmasıdır, hər 1000 işləyə daha çox pensiyaçının düşməsidir, işləyənlərin əməkhaqqının azalmasıdır, dövlətin sosial xərclərinin artmasıdır. Bunun üçün də əksər dövlətlər öz əhalisinin artması, uşaq və gənclərin xüsusi çəkisinin çoxalması üçün çoxsaylı tədbirlər həyata keçirirlər. Buraya çoxsaylı stimullaşdırıcı güzəştlər və yardımlarla yanaşı aylıq uşaqpulu verilməsi də daxildir. Təəssüf ki, bizdə bu istiqamətdə strateji proqramlar həyata keçirilmir və ildən-ilə bu sahədə vəziyyət pisləşir.

Uzun illərdir ki, biz sosioloqlar, həmçinin bəzi deputatlar, ictimai xadimlər tərəfindən hökumətə və parlamentə uşaqpulunun bərpası ilə bağlı təkliflər verilir. Bunun üçün lazım olan maliyyə-iqtisadi imkanlar da artıqlaması ilə var. Lakin təəssüf ki, bu istiqamətdə heç bir irəliləyiş yoxdur. Hesab edirəm ki, ilkin mərhələdə heç olmasa hər uşağa görə aylıq 100 manat, doğuma görə birdəfəlik 5000 manat yardım ödənilə bilər.

Bəzi opponentlərimiz deyirlər ki, sosial yardım ona ehtiyacı olanlar üçündür, yüksək maddi təminatlı vətəndaşlara niyə sosial yardım edilsin ki? Müəyyən qədər haqlıdırlar. Daha ədalətli olardı ki, maddi təminat cəhətdən aşağı təbəqələrə verilsin. Məsələn, ilkin mərhələdə aylıq gəliri adambaşına 500 manatdan aşağı olan ailələrə ödənsinlər. Adambaşına bundan yuxarı məbləğ düşən ailələrdə uşaqların heç bir maddi problemi ola bilməz və onların dövlətin maddi yardımına da ehtiyacları yoxdur.

Hazırda 6 və daha çox uşaqlı ailələrə uşaqpulu verilir. Lakin indiki dövrdə 6 və daha çox uşaq çox nadir rast gələnən haldır. Yaxşı olardı ki, ilkin etapda heç olmasa 3-dən çox uşağı olan ailələrə uşaqpulu verilərdi.

Bəzi məmurlar və deputatlar deyirlər ki, bizdə ünvanlı sosial yardım verilir. Bəli, belə bir sistem var. Amma buna baxmayaraq, yoxsulluq içində yaşayan uşaqlar az deyil. Deməli bu sistem effektiv deyil. Uşaqpulu ünvanlı sosial müavinətdən daha ünvanlı və daha şəffaf sistemdir. Burada korrupsiya və qanunsuzluq imkanı sıfıra bərabərdir.

Bununla yanaşı etiraf etməliyik ki, ailələrdə uşaq sayının kəskin azalması, əlbəttə təkcə sosial-iqtisadi problemlə bağlı deyil. Çünki əksər imkanlı ailələrdə uşaq sayı 1-2 olur. İnsanların yaşayış tərzləri, mənəvi dəyərləri psixologiyaları dəyişib. Hamı "müasir" olub və artıq çoxları öz həyatını uşaqlara xərcləmək istəmir, deyir ki, mən bütün həyatımı öz əyləncəm üçün yaşamalıyam. Bir sıra digər obyektiv səbəblər də var, məsələn, evliliklərin sayı azalıb, sonsuzluq halları artıb. Bütün bu səbəblər bizi demoqrafik fəlakətə sürükləyir. İndidən tədbir görməsək, sonra gec olacaq.

# Ər öz arvadına sözünü “votsap”la deyir

## *Sosial şəbəkələr ailə dağıdır?*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti çərçivəsində hazırlanıb*













İnsan xarakterləri müxtəlifdir və hər kəsin sosial şəbəkələrə münasibəti birmənalı deyil. Amma konkret olaraq sosial şəbəkələrin zərərlərini sadalasaq, internet insanları fərdiləşdirir deyə bilərik. Sosial şəbəkələr bizi canlı ünsiyyətdən çəkindirir, fərdlər üzbəüz deyə bilmədiklərini internet vasitəsi ilə çatdırırlar, hisslərə qapılaraq öz düşüncələrində çarəsiz olduğunu düşünürlər ki, bunun da sonu çox vaxt intihar olur. İntihar edən şəxs bir cox hallarda, əslində, ölmək istəmir, intihardan öncə hər hansısa bir mesaj verir və bu mesajı da çox vaxt sosial şəbəkədə yazır.

### Sosial şəbəkələr ailə dağıda bilərmi?

Bu suala birmənalı yanaşmaq olmaz. Əgər cütlükdən hər hansı biri ittiham edirsə ki, digəri internetdə kiminləsə yazışırdı və bu səbəbdən ayrıldıq, bu, qismən doğru olar. Çünki kifayət qədər normal çərçivədə, dostyana edilən virtual söhbətlər ailəyə zərər verməz. Əslində, sosial şəbəkələri bunu bəhanə edərək ayrılan insanların illərlə üst-üstə yığılmış problemlərinin pik nöqtəsi hesab etmək olar. Bir şeyi də qeyd edim ki, internetdə ”darıxıram”, ”kim var, kim yox?”, ”mən yenə də təkəm ” və s. bu kimi statuslar real həyatda gücsüzlüyün, özündən narazılığın, özünü sevdirə bilməməyin nəticəsidir ki, onlar özlərini virtual aləmdə təsdiqləmək istəyirlər.

Bəzi insanlar sosial şəbəkənin xeyrini görür, çünki informasiya tələbatını ödəyir, intellekti, dünyagörüşü gücləndirir, biliyi təkmilləşdirir, yeni tanışlıqlar yaradır. Xüsusilə, fiziki imkanları məhdud insanlar üçün sosial şəbəkələr ən optimal ünsiyyət vasitəsidir, fiziki məhdud imkanlarına görə evdən çölə çıxa bilməyən bu insanlar sosial şəbəkələr vasitəsi ilə dünyanın bütün ölkələrindən özünə dost tapır, ünsiyyət qurur. Evdə oturur, amma dünyanı gəzir. Təbii ki, virtual imkanlar sayəsində.

Bəziləri isə sosial şəbəkələrin ancaq zərərini görür, virtual aləmin köləsinə çevrilir, sosial şəbəkələrdə ”yaşayır”, psixologiyasına, səhhətinə zərərli vərdişlər qazanır. Amma ümumən sosial şəbəkələr bizə çox şey verir, münasibətlərimiz genişlənir, yoldaşlığımız sərhəd tanımır. Onun sayəsində fəaliyyətimiz genişlənir, fikirlərimizi daha geniş auditoriyaya çatdıra bilirik. Əsas olan odur ki, sən bu imkanı hansı yöndə istifadə etməyə meyillisən. Yəni, mütləq yaxşı, mütləq pis olan yoxdur, hər şeyin öz funksiyası, təyinatı var.

### Ər-arvad ”votsap” vasitəsi ilə söhbətləşir

Biz əvvəl sosiallaşmaq üçün canlı ünsiyyətdə olurduq, qohumla, qonşuyla münasibət yaradırdıq, indi sosial şəbəkədən hal-əhval tuturuq. Ər arvadına sözünü bu otaqdan o birinə keçib demir, şəbəkədən yazır. Hər nə qədər gizli qalsa da, sosial şəbəkələr ucbatından bizim ölkəmizdə də ailələr dağılır. Düzdür, çoxları heç bilmir ki, bu ailə nə səbəbdən dağıldı, çünki məhkəmə onları ”yola getməmək”, ”davamlı mübahisə” kimi səbəblərlə boşayır. Əslində, ailələrin bəzilərində boşanma səbəbi belədir: ”qadın və ya kişi davamlı olaraq sosial şəbəkədə, messencerdə olduğuna və bir-biri ilə ünsiyyət saxlamadığına görə ailədaxili söz-söhbət yaranıb və tərəflər boşanmağa qərar veriblər”.

Ailəsində problem olan, həyat yoldaşı ilə münasibətində anlaşılmazlıqlar yaşayan, virtual məkanda ”vaxtını öldürən” kifayət qədər evli qadın var. Bəlkə də ilk baxışda bütün qadınlar düşünürlər ki, mən özümü bilirəm, iradəmə hakiməm, yetkin insanam, kimsə məni ”yoldan çıxara” bilməz. Buna şübhəmiz yoxdur, amma çox qadın etiraf edir ki, ona gələn səmimi mesajlara cavab yazmaya bilmir, yazır, yazır və beləcə münasibət yaranır. Bunun sonu ya xəyanət, ya da şantajla nəticələnir.

Evli kişilərin sosial şəbəkə macərasına gəlincə isə, bir çox kişi oradan maraq, tanışlıq və yeni münasibətlər qurmaq üçün istifadə edir. Düzdür, onların arasında, sadəcə, işgüzar əlaqələr, səmimi dostluq quranlar da az deyil, amma sosial şəbəkələrdə ”qadın ovu”na çıxan kişilər daha çoxdur. Xüsusilə, ailəlik və orta yaşlı kişilərin əksəriyyəti profilində qadın şəkli olan bütün səhifələrə qonub ”bal çəkir”, tərif yağdırır, nömrə istəyir, görüş təyin edir. Onun səmimi yazışmalarından xəbər tutan xanımı isə nəfəsini məhkəmədə dərir.

***Lalə Mehralı***

# Yayda uşaqları necə qidalandırmalı?



*Mütəxəssis açıqlaması*







**Yay mövsümündə uşaqların qidalanmasına özəlliklə diqqət etmək lazım gəlir. İsti havanın gəlməsiylə uşaqlar da dondurma kimi çox da sağlam olmayan qidalara üz tuturlar və diqqətsizlik bəzi fəsadlara gətirib çıxara bilər. Bəs valideynlər bu mövsümdə uşaqların qidalanmasına necə diqqət etməlidir?**

Qida mütəxəssisi Ağa Salamov SİA-ya açıqlamasında valideynlərə tövsiyələr verib: "Hər bir valideyn uşaqların 11 yaşına qədər pediatrların məsləhətləri ilə qidalanmasına fikir verməlidir. 11 yaşından sonra da həkim məsləhəti ilə uşaqlara diqqət edilməlidir. İndi mövsümi meyvələrin şirəsini uşaqlara verən valideynlər vardır. Bu da uşaqlarda şişkinlik, köp, mədə-bağırsaq sisteminin pozulması kimi halları ortaya çıxarır. Buna görə də meyvələrin şirəsini çəkmək əvəzinə, meyvənin püre halını uşaqlara vermək daha məqsədə uyğundur. Çünki bu zaman meyvə liflərdən ayrılmır. Liflərdən ayrılmayan, püre halında olan və ya çiy meyvələr daha faydalıdır. Meyvə şirəsinin əvəzinə uşaqlara kompotlar da vermək daha faydalıdır. Çünki meyvələrin vitaminləri və lifləri də meyvənin içində qalır. Liflərin olması bağırsaq florasına, uşaqların mədə-bağırsaq sisteminə böyük fayda verir".

Uşaqlara dondurma verməklə bağlı xüsusi diqqətli olmağı məsləhət görən ekspert deyir: "Uşaqlara dondurmalar verən zamanı ehtiyatlı olmaq lazımdır. Valideynlər çox zaman düşünür ki, uşaq dondurmanı yeyəndən sonra isti çay vermək soyuqlamanın qarşısını alacaq. Bu da yanlış yanaşmadır və mədə-bağırsaq sisteminə zərər vurur. Uşaqlar dondurmanı yeyərkən bunlara diqqət edilməlidir: İlk növbədə, dondurmanı alanda markası önəmlidir. İkincisi, əzilməmiş, qablaşdırmada deformasiyaya uğramamış olması önəmlidir. Çünki isti hava kütləsinin dərin dondurucunun içinə daxil olmasıyla dondurmaların buzu açılıb təkrar donması baş verə bilir. Buzu açılıb təkrar donan dondurmalar da uşaqlara zərərdir. Buna görə də dondurma alarkən diqqətli olmaq lazımdır. Deformasiyaya uğramış, əl vuran zaman əzilən dondurmaları yemək məsləhətli deyildir. Əks halda bağırsaq çöpləri vasitəsilə zəhərlənmə halları baş verə bilər".

Uşaqların allergik problemləri ola biləcəyi ehtimalına da toxunan A.Salamov həkim məsləhəti ilə uşaqların qida rasionuna bu qidaları əlavə etməyi vurğulayıb: "Uşaqların yeməklərində allergik problemləri öyrənmək lazımdır. Allergiyanı nəzərə alaraq, həkim məsləhəti ilə uşaqların səhər yeməyində yumurta, kalsiumla zəngin ağartı məhsulları istifadə etmək olar. Ağartı məhsullarının uşaqlar və yeniyetmələrdə sümük bərkiməsində rolu var. Yumurta da uşaqları tox tutur həm də tərkibində olan elementlər sayəsində beyin fəaliyyətini gücləndirir. Əvəz edilməz yağ turşusu olan omeqa 3 ilə zəngin olduğuna görə də faydalıdır. Eyni zamanda, tərəvəzlər və zeytun yağı ilə hazırlanmış salatlar da faydalıdır və uşaqları mayonezli salatlardan və yeməklərdən uzaq tutmaq lazımdır. Fast-fudlar isə məsləhət görülmür. Uşaqları sağlam qidalandırmaq üçün zeytun yağı, mövsümi meyvə və tərəvəzlərlə hazırlanmış salatlarla, qidalarla təmin etmək lazımdır. Məsələn, zeytun yağı, göyərtilər, limon şirəsi, alma sirkəsiylə hazırlanmış salat həm dadlı həm də minerallar, vitaminlərlə zəngin olacaqdır. Bununla yanaşı, uşaqlara buxarda bişmiş, tam qızarmamış qidalar da vermək olar. Tam buğda unu və çovdar unu ilə qarışıq çörəklər daha məsləhətlidir. Çünki belə çörəklər liflərlə zəngindir. Nəticədə, serotonin hormonunun, beyində oreksin maddəsinin aşağı düşməməsinə səbəb olur, uşaqlar dərslərinə laqeyd yanaşmırlar, yorğunluq və əzginlik hiss etmirlər, gümrah və daha xoşbəxt olurlar".

***Aysel Naibli***

## Müharibə veteranlarının təhsil haqqı dövlət büdcəsi hesabına ödəniləcək



Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin təhsil müddəti ərzində təhsil haqqı 2023/2024-cü tədris ilindən etibarən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi təhsil xərcləri miqdarında dövlət büdcəsi vəsaiti hesabına ödəniləcək.

SİA-nın xəbərinə görə, Prezident İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb. Nazirlər Kabineti sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi ilə əlaqədar normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir. Bu Sərəncam 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Parklanmadakı yeni qaydalar hansı dəyişiklərə rəvac verəcək?



"Yeni parklanma qaydaları və tariflərin tətbiqi əlbəttə ki, bu sahədə müəyyən çatışmayan məsələləri həll edəcək. Bunlardan başlıcası parklanma ilə bağlı problemlərin tıxaclara səbəb olmasıdır". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Eldəniz Cəfərov deyib. Onun sözlərinə görə, əslində, tıxacların yaranmasının bir çox səbəbi var: "Amma onlardan ən əsası parklanma yerlərinin təşkil olunmaması, eyni zamanda, parklanma üçün təyin olunmuş yerlərin müxtəlif şəxslər tərəfindən zəbt olunması idi".Ekspert sözlərinə davam edərək bildirib ki, tıxacların aradan qaldırılması, yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı dövlət proqramı var. Bu dövlət proqramı 2019-2023-cü illəri əhatə edir. Proqramda bu məsələlərlə bağlı atılmalı olan addımların hər biri ayrı-ayrılıqda əks olunub. Sadəcə müvafiq qurumlar həmin proqramla tanış olmalı və hər biri öz öhdəsinə düşəni etməlidir. Düşünürəm ki, belə olduğu halda qismən də olsa, tıxacların qarşısını almaq mümkündür".

***Ləman Sərraf***

## Putinin həbsinə order vermişdi, indi onun özünü axtarışa verdilər!

Rusiya Prezidenti Vladimir Putin və uşaq ombudsmanı Mariya Lvova-Belovanın həbsinə order verən Beynəlxalq Cinayət Məhkəməsinin (MCM) hakimi Tomoko Akane cinayət işi üzrə axtarışa verilib. Bu barədə məlumatı Rusiya Daxili İşlər Nazirliyi yayıb.



Məlumatda deyilir ki, hakim Tomoko Akane Rusiya Federasiyası Cinayət Məcəlləsinin maddəsi ilə axtarışa verilib. Qurumun məlumat bazasında hakimin konkret hansı maddə üzrə axtarışda olduğu qeyd edilməyib.


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**